# PEŞMAN OLMADAN ƏVVƏL

HARUN YAHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ
- İNSANİN DÜNYADA YAŞADIĞI PEŞMANÇILIQ
    - Dünyadakı peşmançılıqdan ibrət götürmək lazımdır
- İNKARÇİLAR ÜÇÜN ƏBƏDİ PEŞMANÇILIĞIN BAŞLANĞICI: ÖLÜM
    - İnkar edənlərin ölüm anındakı peşmançılıqları
- HESAB GÜNÜNÜN PEŞMANÇILIĞI
- CƏHƏNNƏMDƏKİ PEŞMANÇILIQ
    - İnkarçıların cəhənnəmi görəndə yaşadıqları peşmançılıq
    - İnkar edənlərin cəhənnəmdə qarşılaşacaqları əzab
    - İnkarçıların cəhənnəmdə əbədi olaraq yaşayacaqları peşmançılıq
- BU PEŞMANÇILIĞI YAŞAMAMAQ ÜÇÜN
- DARVİNİZMİN ÇÖKÜŞÜ

# MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı ildə Ankarada anadan olmuşdur. Orta məktəbi Ankarada oxumuşdur. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil almışdır. 1980-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda çoxlu əsər yazmışdır. Bunlarla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox əhəmiyyətli əsərləri mövcuddur.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilmişdir: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilmişdir. Müəllif tərəfindən kitabların üz qabığına Rəsulullahın möhürünün vurulmasının simvolik mənası isə onların içindəkilərlə əlaqədardır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu kitabı və sonuncu sözü, peyğəmbərimizin də peyğəmbərlərin sonuncusu olduğunun rəmzidir. Müəllif də bütün yazilarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutmuşdur.

Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialaranı bir-bir puça çıxartmağı və dinə qarşı yönəldilən etirazları tam olaraq susduracaq “sonuncu söz”ü söyləməyi hədəf seçmişdir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilmişdir. Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələlərini düşünməyə yönəltmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqavinaya, İspaniyadan Braziliyaya, Malayziyadana İtaliyaya, Fransadan Bolqarıstana və MDV ölkələrinə qədər dünyanın əksər ölkələrində bəyənilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqaqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, indoneziya, malay, benqol, bolqar, yapon, çin, azərbaycan kimi əksər dillərə tərcümə edilən əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük diqqət çəkən bu əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər insan onlardakı hikmətli, xülasəli, asan başa düşülən səmimi üslubun, məntiqəuyğun və elmi həqiqətlərin olduğunu dərk edir. Bu əsərlər sürətli təsir etmək, tam nəticə vermək, etiraza yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyytlərə malikdir. Bu əsərləri oxuyan və üzərində ciddi düşünən adamların daha materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etmələri mümkün deyil. Bəziləri müdafiə etsələr belə, bunu ancaq inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürüdülmüşdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə sarıdan məğlub olmuşlar. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmət və ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır. Müəllifin özü bu əsərlərə görə qürurlanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa, bu əsərlərin çap və nəşr edilməsi işində qarşıya heç bir maddi qazanc məqsəd qoyulmamışdır.

Bu həqiqətlər nəzərə alınanda, insanların görmədiklərini görmələrinə kömək edən, hidayətə gəlmələrinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin də çox mühüm xidmət olduğu məlum olur. Bu dəyərli əsərləri tanıtmağın əvəzinə insanların zehinlərini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə güclü və qəti bir təsiri olmadığı təcrübələrdə müşahidə edilən kitabları yaymaq isə əmək və vaxtın itirilməsinə səbəb olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaq və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin aydın şəkildə görsəndiyini oxucuların ümumi qənaətindən başa düşə bilərlər. Bilinməlidir ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib yaşaya biləcəkləri şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, fəsad və iğtişaşa məruz qoymaq istəyənləri nəzərə alsaq, bu xidmətin əlimizdən gəldiyi qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsinin vacibliyi aydın olar. Əks təqdirdə, çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox

böyük vəzifəni öz üzərinə götürmüş Harun Yəhya külliyatı Allahın icazəsi ilə 21-ci əsrdə insanları Quranda bildirilən əmin-amanlıq və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa bir vasitə olacaqdır.

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin çökməsinə aid fikirlərə yer ayırmağımıza səbəb adı çəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanın imanını itirməsinə, ya da şübhəyə düşməsinə səbəb olur. Buna görə də, bu nəzəriyyənin aldadıcı olduğunu göz önünə çıxarmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə vacibdir.

Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsətləri olacaq. Bu üzdən, hər kitabımızda bu mövzuya qısa da olsa, yer ayırmağı məqsədəuyğun bilirik.

Bildirilməsi lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunmaqda, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilməkdədirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmaqdadır.

Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların yeddidən-yetmişə hər kəs tərəfindən rahat başa düşülməsini təmin etməkdədir. Belə təsirli və dəlilli izah sayəsində kitablar bir nəfəsə oxunur. Hətta dini rədd eləmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmirlər. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxumaları mövzuyla bağlı təfəkkür və təcrübələrini də bir-biriləri ilə paylaşmaları səbəbindən yararlı olacaq.

Bununla belə, sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabları hamının oxumasına çalışmaqdır.

Bununla kitabı əlinə alan hər bir adam yuxarida qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlər olduğunu görəcəkdir. Həm

dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaqdır.

Bu əsərlərdə başqa kitablarda rast gəldiyimiz müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət edilməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara rast gələ bilmərsiniz.

# GİRİŞ

İnsan dünyada bəzən maddi-mənəvi müxtəlif müsibət və sıxıntılarla qarşılaşır. Ancaq insana əzab verən elə bir hiss var ki, o bəlkə də heç bir fiziki əziyyətlə müqayisə edilməyəcək qədər şiddətlidir və insanın ruhunda böyük əzginlik əmələ gətirir. Bəhs etdiyimiz bu hiss peşmançılıq hissidir.

Peşmançılığın iki fərqli şəkli var. Allaha iman gətirən insanların yaşadıqları peşmançılıqla yuxarıda tərif etdiyimiz və inkarçı insanların yaşadıqları peşmançılıq bir-birindən çox fərqlidir.

Möminlər hər hadisədən Allahın xəbəri olduğunu və Onun icazəsi ilə baş verdiyini, başlarına nə gəlsə, Allahın izni ilə olduğunu qəti olaraq bilən insanlardır. Buna görə də çox mühüm xüsusiyyətlərindən biri olan təvəkkülü əsas götürürlər. İnanan insan çətinliklə də qarşılaşsa, heç etmək istəmədiyi səhv bir iş görsə, təvəkküllə hərəkət edər. Əgər səhv bir addım atıbsa, tez tövbə edər və Allahın onu bağışlayacağını düşünər. Bu səbəbdən də sıxıntılı və uzun müddət davam edən peşmançılıq hissinə qapılmaz. Möminin hiss etdiyi peşmançılıq onu səhvlərini düzəltməyə, tövbə edərək belə bir davranışı bir də təkrarlamamağa istiqamətləndirər. Yəni özünü düzəltməsinə, nöqsanlarını aradan qaldırmasına təhrik edər, ancaq heç vaxt sıxıntıya, ruh düşkünlüyünə səbəb olmaz. Şövqünü, həyəcanını, imani coşğusunu azaltmaz, tərəddüdə və vəsvəsəyə salmaz.

Allaha iman gətirməyən insanların yaşadıqları peşmançılıq hissi isə çox sıxıntılı və davamlıdır. Belələrinin təvəkkülü olmadığı üçün qarşılaşdıqları çətinliklərə, etdikləri hər səhv hərəkətə görə dəhşətli sıxıntı çəkirlər. Həyatları boyu “kaş” nidası ilə yaşayırlar: “kaş etməsəydim”, “kaş deməsəydim”, “kaş getməsəydim”...

Ancaq bundan daha əhəmiyyətli bir məsələ var. Belə ki, insanların dünyada ikən yaşadıqları bu sıxıntılı peşmançılıqdan daha böyüyü axirətdə qarşılarına çıxacaq. Dünyada dindən uzaq olan insanlar, axirətdə həmişə dünyada yaşadıqları hər dəqiqənin peşmançılığını hiss edəcəklər. Çünki dünyada onlara çoxlu xəbərdarlıq olmuş, doğru yola dəvət edilmişdilər. Fikirləşmək və həqiqəti tapmaq üçün çox zamanları olmuşdu. Ancaq bunları həmişə qulaqardına vurmuş, xəbərdarlıq ediləndə dinləməmiş və dünyadakı yaşamın heç bitməyəcəyi kimi aldadıcı bir hissə qapılaraq axirəti yaddan

çıxarmışlar. Cəhənnəmlə qarşılaşanda isə artıq geri qayıdıb səhvlərini düzəltməyə imkan tapa bilməyəcəklər. Quranda bu adamların axirətdəki peşmançılıqla dolu sözləri belə ifadə edilmişdir:

**Biz sizi yaxın bir əzab barəsində xəbərdar etmişdik. O gün insan öz əllərinin etdiyi əməlləri görəcəkdir və kafir deyəcəkdir: "Kaş torpaq olaydım!" (Nəbə surəsi, 40)**

**Sən onların cəhənnəm odu üzərinə qoyularkən, "Kaş ki, biz geri qaytarılaydıq, Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq"- dediklərini görəydin! (Ənam surəsi, 27)**

**Onlar deyəcəklər: "Əgər qulaq assaydıq və ya anlasaydıq, cəhənnəm odu əhli içərisində olmazdıq". (Mülk surəsi, 10)**

Sizə təqdim etdiymiz bu kitabın məqsədi "kaş ağıllı hərəkət edəydik, kaş Rəbbimizin ayələrini yalan saymayaydıq, kaş bizə xəbərdarlıq edənlərin sözlərinə əməl edəydik, kaş..." deyəcəkləri və torpağa dönüb yox olmağı istəyəcək qədər böyük peşmançılıq çəkəcəkləri günlə bağlı insanları tənbeh etmək və hələ ki, düzəlmək imkanı olduğundan, onları Allah üçün yaşamağa çağırmaqdır.

Unutmayın ki, o gün bir kimsənin peşmançılığının başqasına faydası olmayacaq və onun özünü cəhənnəmin əzabından qurtarmayacaq. Bu peşmançılığı yaşamamağın yeganə yolu vaxt varkən Allaha təslim olmaq, Onun əmr etdiyi şəkildə yaşamaqdır.

Bu kitab sığınacaq heç bir yerin və heç cür qurtuluş imkanının olmadığı axirət əzabına qarşı bir xatırlatma, Allahın yoluna dəvətdir.

**Qarşısı alınmaz qiyamət günü Allah tərəfindən gəlməmiş Rəbbinizə cavab verin. O günü sizin üçün nə bir sığınacaq yeri, nə də inkar etməyə imkan olacaqdır. (Şura surəsi, 47)**

# İNSANIN DÜNYADA YAŞADIĞI PEŞMANÇILIQ

**Öz Rəbbinizə üz tutub tövbə edin və sizə əzab gəlməmiş Ona itaət göstərin! Sonra sizə bir kömək edən olmaz. Siz heç bilmədiyiniz halda, qəflətən əzab sizə gəlməzdən əvvəl Rəbbinizdən sizə nazil edilmiş ən yaxşı kəlamın ardınca gedin. (Zumər surəsi, 54-55)**

İnsan bir təhlükə ilə qarşılaşanda onun vicdanı heyrətamiz sürətlə hər şeyin hesabını aparmağa başlayır. Dünyada yaşadığı ömrə və bu müddət ərzində gördüyü işlərə bir-bir qiymət verir. Əgər dünyada yaxşı işlər görməyibsə, Allahın dininə tabe olmayıbsa, həmin an onu çox böyük peşmançılıq sarır. Çünki həyatı boyu heç düşünmədiyi gerçəklər bir anda bütün yönlərilə insanın gözü önündən keçir. Bəlkə də ömründə birinci dəfə ölümün, həqiqətən, çox yaxın olduğunu anlayır. Dünyadaykən cənnəti qazanacaq şəkildə ömür sürmədiyini və qapıldığı peşmançılıq hissinin də bu səbəbdən meydana gəldiyini düşünüb, məsələni dərk edir.

Allaha qarşı etdiyi nankorluğu başa düşür və bu hərəkətlərinin əvəzsiz qalmayacağını da çox yaxşı hiss edir. Həmin ana qədər heç vaxt yaşamadığı qorxu hissi onu bürüməyə başlayır. Belə bir vəziyyətdən onu ancaq Allahın qurtara biləcəyini artıq qavrayır. Təhlükənin sovuşması üçün Allaha yalvarır, ona dualar edir. Əgər bəladan qurtulsa, çəkdiklərini heç vaxt unutmayacağına, Allaha şükür edəcəyinə və sonrakı həyatını bu həqiqətlərə görə nizamlayacağına söz verir. Yetər ki, qurtulsun və əlinə bir də yaşamını sürdürmək imkanı düşsün...

Amma insanların əksəriyyəti düşdüyü təhlükəli vəziyyətdən çıxandan sonra verdiyi sözə sadiq qalmır. Allahın onu bəladan qurtarmasına rəğmən, yenidən əvvəlki vəziyyətinə qayıdır. Ölümlə göz-gözə gələndə qəbul etdiyi həqiqətləri bir andaca yaddan çıxarır. Hiss etdiyi peşmançılıq və təslimçilik yerini əvvəlki nankorluğa verir. Təhlükə sovuşandan sonra sanki bir qədər əvvəl Allaha dua edən və peşmançılıq yaşayan özü deyilmiş kimi, Allahdan üz çevirir. Əvvəlki həyatını sürdürərək, bəlkə də dünyaya daha çox bağlanaraq, yaşamağa

davam edir. Allah belələrinin ruhi vəziyyətini Quranda bu misallarla açıqlamışdır:

**Quruda da, dənizdə də sizə hərəkət verən Odur. Siz gəmidə olarkən, gəmilər onları xoş bir küləklə apararkən və onlar buna sevinən zaman şiddətli tufan qoparaq, onların üstünə hər tərəfdən dalğalar gəldi və onlar elə zənn etdilər ki, artıq işləri bitmişdir. Onda onlar imanda Allaha sədaqət göstərərək Onu çağırdılar: "Əgər bizi bundan xilas etsən, şükür edənlərdən olarıq". O, onları xilas etdikdə isə onlar dərhal haqsız olaraq, yer üzündə azğınlıq törədərlər. Ey insanlar! Sizin azğınlığınız bu dünya həyatının ləzzəti kimi əleyhinizədir. Sonra siz Bizə qayıdacaqsınız və Biz nə etdiklərinizdən sizə xəbər verəcəyik. (Yunus surəsi, 22-23)**

**Əgər dənizdə sizə bir bəla toxunarsa, Allah istisna olmaqla, bütün ibadət etdikləriniz yox olub gedərlər. Sonra isə O sizi xilas edib quruya çıxararsa, siz üz döndərərsiniz. Həqiqətən də insan naşükürdür. (İsra surəsi, 67-68)**

Ayələrdə də bildirildiyi kimi, əcəba, insan bir təhlükədən canını qurtarandan sonra oxşar, yaxud başqa cür təhlükəylə qarşılaşmayacağından, qarşılaşsa da, yenidən qurtulacağından əmindirmi? Əlbəttə, bundan əmin olmaq mümkün deyil. Üstəlik, qurtulsa da, heç bir şey dəyişməz. Çünki onun yaşaması üçün verilən müddət başa çatdıqdan sonra mütləq öləcək. Onda da eyni peşmançılığı yaşayacaq, lakin bu pemançılığın ona faydası olmayacaq.

Burada bəhs olunanlar əslində, dindən uzaq yaşayan bütün insanların malik olduqları müştərək ruh halıdır. Allah Quranın başqa ayələrində bu insanların vəziyyətlərini bizə belə xəbər verir:

**İnsana bir xətər toxunduqda, böyrü üstə uzanmış vəziyyətdə də, ayaq üstə də Bizi çağırar. Biz xətəri ondan sovuşdurduqda isə o çıxıb gedər, sanki Bizi ona toxunmuş xətərə görə heç**

**çağırmamışdı. Tutduqları əməllər həddini aşanlar üçün belə bənzədilmişdir! (Yunis surəsi, 12)**

**İnsanlara bir ziyan toxunan zaman özlərinin Rəbbinə üz tutaraq, Onu köməyə çağırarlar. Sonra Özündən onlara bir mərhəmət daddıran kimi onların bir dəstəsi öz Rəbbinə şərik qoşar.**

**(Rum surəsi, 33)**

Göründüyü kimi, ayələrdə də bəhs olunan insanlar bir sıxıntıyla üzləşdikləri zaman Allaha üz tuturlar. Ancaq təhlükədən qurtulandan sonra bir anda Allaha verdikləri sözü unudaraq, nankorluq edirlər. Buradan aydın olur ki, insanların yaşadıqları peşmançılıq qarşılaşdıqları təhlükə anındakı çarəsizliklərindən doğur. Halbuki, yuxarıda da bildirdiyimiz kimi, Allaha inanan insanların yaşadıqları faydalı peşmançılıq belə deyil.

Həqiqi peşmançılıq bir anda unudulmayan, insanı hərəkətə gətirən, hətta bəzi vaxtlar onda vacib dəyişikliklər edən bir hissdir. Ürəyində səmimi bir peşmançılıq hiss edən adam həyatının ona bağışlanan sonrakı dövrünü Allahın rizasına uyğun yaşayar. Şərtlər dəyişəndə və ona yeni fürsət veriləndə, qətiyyən əvvəlki vəziyyətinə dönməz. Çünki belə nankorluğun Allahın ayələrində də bildirildiyi kimi, özünün əleyhinə olacağını bilər.

Ayələrdə qeyd olunan gəmidəki insanların psixologiyasını Allah bütün insanlara ibrət olaraq göstərib. Çünki bu, hər bir insanın nəfsində olan meyldir. Elə isə, hər insan nəfsinin bu mənfi xüsusiyyətindən imtina etməli, ayələrdə göstərilən insanların halından ibrət götürərək, vicdanı qarşısında səmimi hesabat verməlidir. Yəni bunları fikirləşməlidir:

*"Mən buna bənzər bir vəziyyətlə qarşılaşsam, hansı ruhi vəziyyətdə olardım? Nələrdən peşman olar və mənə gələn təhlükədən qurtulduğum təqdirdə, nəyi dəyişdirəcəyimə dair Allaha söz verərdim? Nələrdən uzaqlaşar, hansı qərarlarımı səmimiyyətlə yerinə yetirməyə başlayardım?"*

İnsanın bunları fikirləşməsi və doğru qərar verməsi üçün mütləq təhlükəli vəziyyətə düşməsi lazım deyil. Hətta belə bir təhlükəylə qarşılaşmadığı üçün heç kim aldanmamalıdır. Bəlkə də bu gün belə vəziyyətə

düşməyəcəyini düşünən insanın başına çox yaxın vaxtlarda buna oxşar bir iş gələcək. Yaxud, bəlkə də ömrünün axırına qədər heç bir təhlükəylə üzləşməyəcək. Amma qəti olan bir şey var ki, onun üçün təqdir edilən ölüm anı gəlib çatan kimi ölüm mələklərini yanında görəcək. Ölümün həqiqət olduğunu görəndə isə, əgər Allahın rizasına uyğun yaşamayıbsa, mütləq peşman olduğunu hiss edəcək.

Bu peşmançılıqla dünyada da, axirətdə də qarşılaşmamaq üçün dünyada yerinə yetiriləcək tək məsələ Allaha üz tutmaq, Onu sevmək, Ondan çəkinmək, Onun Quranda bildirdiyi əmrləri yaşamına tətbiq etməkdir. Ölüm çox yaxındır. Elə isə, insan edəcəklərini heç bir şəkildə gecikdirməməli, verdiyi qərarları da səbr və iradəylə həyata keçirməlidir. Allaha olan yaxınlığının, səmimiyyətinin ölçüsü isə çarəsizlik və təhlükə anında Allaha üz tutub, iman gətirən adamın göstərdiyi yaxınlıq və səmimiyyət qədər olmalıdır. Həmçinin bu yaxınlıq və səmimiyyəti qalan bütün ömrü boyunca davam etdirməlidir.

İnsanların yaddan çıxarmaması vacib olan ən əsas həqiqət budur: insanın dünyada yaşamasının əsl məqsədi Allahın razı olduğu bəndə olmaqdır. Bunun xaricindəki hər şey -qazandığı müvəffəqiyyətlər, sahib olduğu mal-mülk, ailəsi, ətrafı, məqamı Allaha yaxınlaşmaq üçün ancaq bir vasitədir. Bunların ona Allaha şükür etməsi, Ona üz tutması üçün verildiyini yaddan çıxarıb və ya fərqində olmayıb, sadəcə bu vasitələri əldə etməyi qarşılarına məqsəd qoyanların isə etdikləri hər şey boşa çıxacaq. Dünyada əldə etdikləri müvəqqəti faydalar həmin insanlara axirət günündə heç nə qazandırmayacaq. Üstəlik, Allah daha çox belələrinin hüsrana düçar olacaqlarını bir Quran ayəsində belə açıqlayır:

**De: "Əməllərinə görə ən çox ziyana düşənlər barəsində sizə xəbər verəkmi? O kəslər ki, özləri yaxşı işlər gördüklərini güman etdikləri halda, onların dünya həyatındakı cəhdləri boşa çıxmışdır". Bunlar öz Rəbbinin ayələrinə və onunla görüşə inanmayan və buna görə əməlləri hədər getmiş kəslərdir. Qiyamət günü Biz onlar üçün heç mizan-tərəzi də qurmayacağıq. (Kəhf surəsi, 103-105)**

Əgər insan dünyadakı halı, davranışları və əxlaqıyla Allahı razı salarsa, Allah onu dünyada da, axirətdə də qoruyacaq. Ancaq dünyada ikən bu fürsəti

əlindən buraxarsa, ölüm mələkləri yanına gələndə artıq düzəldə bilməyəcəyi səhvləri anlayacaq və sonsuza qədər sürən bir peşmançılıq içində yaşayacaq. Quranda Rəbbinin hüzuruna çıxarılanda etdiklərinə görə peşman olan insanların etirafı belə bildirilir:

**O, deyəcəkdir: "Kaş həyatım üçün əvvəldən tədarük edəydim!"**
**(Fəcr surəsi, 24)**

**"...Kaş öz Rəbbimə heç kimi şərik qoşmayaydım!"**

**(Kəhf surəsi, 42)**

**"...Kaş mən peyğəmbərlə birgə yol tutaydım!"**

**(Furqan surəsi, 27)**

Etdiklərinə görə peşman olub, çarəsizlik içində bu sözləri söyləmək istəməyən hər bir insan vaxt itirmədən, elə indi onu yaradan Rəbbinə üz tutmalı və Onun istədiyi şəkildə yaşamını davam etdirməlidir.

## Dünyadakı peşmançılıqdan ibrət götürmək lazımdır

Dünya həyatı insanların cənnətdəki nöqsansız və sonsuz həyatı qazana bilmələri üçün verilmiş çox əhəmiyyətli bir fürsətdir. Bu fürsətdən istifadə edə bilməyərək dindən uzaq yaşayan insanlar isə yuxarıda da qeyd etdiyimiz kimi, axirətdəki əzabı görəndə, mütəmadi olaraq dünyada keçirdikləri hər dəqiqənin peşmançılığını yaşayacaqlar. Çünki bu insanlar dünyada kifayət qədər tənbeh edilmiş, cənnətin və cəhənnəmin mövcudluğu barədə xəbərdar olunmuşdular.

Onlara hansı davranışlarının necə nəticə verəcəyi bildirilmişdi. Ancaq bu gedər-gəlməz sona varmamışdan əvvəl dünyada yaşadıqları müddətdə Allah insanlara peşmançılığın necə bir hiss olduğunu daddırır. Ölümdən əvvəl bəlkə düşünə və həqiqəti görələr deyə, peşmançılıq hissini onlara mütləq yaşadır.

Bununla yanaşı, peşmançılığı içlərində yaşayan insanlara səhvlərini və yanlış davranışlarını düzəldə bilmələri üçün vaxt da verir. Hər insan dünyada ikən həyatını Allahın ondan istədiyi kimi qurmaq və tövbə edərək, qalan həyatını Allahı razı salacaq şəkildə davam etdirmək imkanına malikdir.

Bu baxımdan, dünyada yaşanan peşmançılıq hissi əslində insanlara Allah tərəfindən verilmiş çox böyük fürsətdir. Çünki əgər peşmançılıqdan sonra Allaha üz tuturlarsa, Allah insanların bu səmimiyyətinin əvəzində onları əbədi olaraq xilas edir. Ancaq əksinə, Allahdan gələn bu tənbeh və fürsətlərə əhəmiyyət verməyərək, vaxtlarını necə gəldi keçirirlərsə, cəzaları sonsuza qədər qurtula bilməyəcəkləri əbədi bir peşmançılıq və əzab olur.

Səhv edib sonra peşman olan insanlar haqqında Quranda çoxlu misallar göstərilir. Yaşadıqları peşmançılıq bu insanlardan bir qismini Allaha yönəltmiş, digərlərinin isə həyatlarında bir də eyni səhvləri təkrar etmələrinə şərait yaratmışdır. Bir qisim də müəyyən vaxt keçəndən sonra yaşadığı sıxıntıları yaddan çıxarmış, əvvəlki üsyankar vəziyyətinə qayıtmışdır.

Insanların səhvlərinə görə çəkdikləri peşmançılığın onları tövbəyə məcbur etməsinə və doğru yola yönəltməsinə nümunə kimi Quranda Hz. Peyğəmbərimiz dövründə mübarizədən kənarda qalan üç nəfər göstərilir:

**Allah peyğəmbərin, ürəkləri az qala başqa tərəfə meyl etdikdən sonra çətin anda onun ardınca getmiş bəzi mühacirlərin və ənsarların tövbələrini qəbul etdi. Sonra bir daha tövbələrini qəbul etdi. Axı Allah onlara qarşı şəfqətlidir, rəhmlidir!". "Döyüşdən geri qalmış üç nəfərin də tövbəsini qəbul etdi. Yer öz genişliyi ilə onlar üçün daralanda, ürəkləri sıxılanda və Allahdan başqa bir sığınacaq olmadığını düşünəndə, Allah onların tövbələrini qəbul etdi ki, onlar əvvəlki vəziyyətə dönsünlər. Axı Allah tövbələri qəbul edəndir, mərhəmətlidir.**

**(Tövbə surəsi, 117-118)**

Yuxarıdakı ayələrdə də göründüyü kimi, o dövrdə peyğəmbərdən dala qalan üç nəfər daxilən çox peşman olmuşdular. Ancaq bu hissdən qurtulmaq üçün yeganə yolun yenə Allaha sığınaraq, tövbə etmək olduğunu da başa düşmüşdülər. Həqiqi peşmançılıq insanları tez bir zamanda hərəkətə gətirən, onları dəyişdirən, səhvlərini düzəltməyə istiqamətləndirən peşmançılıqdır. Belə səmimi peşmançılıqla insanlar həyatlarinın qalan hissəsini Allahın razılığına uyğun yaşayacaq və Allahın bağışlayan və mərhəmətli olduğunu görməyə ümid edəcəklər. Çünki Allah tövbələri qəbul edər və səhvlərini düzəldən bəndələrini bağışlayar:

**Tövbə edib iman gətirən və əməlisaleh olanlardan başqa; Allah bunların pis əməllərini yaxşıları ilə əvəz edər. Axı Allah bağışlayandır, rəhmlidir. Kim tövbə edib əməlisaleh olarsa, o, Allaha doğru üz tutmuş olar. (Furqan surəsi, 70-71)**

**Pis əməllər tutub, sonra tövbə edərək iman gətirənlər, həqiqətən sənin Rəbbin bundan (tövbədən) sonra bağışlayandır, rəhmlidir. (Əraf surəsi, 153)**

**Həqiqətən də Mən tövbə edəni, əməlisaleh olub sonra düz yolla gedəni bağışlayanam. (Taha surəsi, 82)**

Eyni zamanda, Quranda peyğəmbər göndərilən qövmlərin etdikləri böyük səhvlərə görə peşman olduqları da bildirilir. Məsələn, Hz. Musanın Tur dağına getməsindən istifadə edən qövmü Allahı unudub, bir heykələ sitayiş etməyə başlamış, ancaq hərəkətlərinin böyük səhv olduğunu biləndə, çox peşman olmuşdular. Qövmün içinə dolan bu peşmançılıq Quran ayələrində belə bildirilir:

**Musanın tayfası ondan sonra öz bəzək şeylərindən böyürtüsü olan bir buzov heykəli düzəldib, özlərinə tanrı götürdü. Bəs onlar görmürdülər ki, o, nə onlarla danışır, nə də onlara düz yol göstərir? Onu özlərinə tanrı götürdülər və zalım oldular.**

**(Əraf surəsi, 148-149)**

Quranda bu mövzuda göstərilən başqa bir misal isə bağ sahibləri ilə bağlıdır. Bağ sahibləri Allahın nemət olaraq verdiyi bağı özlərininki sayıb qürrələnmiş və Allaha şükür etməyi unutmuşdular. Lakin bundan sonra gələn əzab onların bu davranışlarına görə peşman olmalarına və Allaha üz tutmalarına səbəb olmuşdu:

**Biz onları vaxtilə bağ sahiblərini sınadığımız kimi sınadıq. O zaman bağ sahibləri and içmişdilər ki, səhəri açan kimi gedib onun meyvələrini dərəcəklər. Onlar heç bir istisna yeri də qoymamışdılar. Onlar yuxuda ikən sənin Rəbbindən o bağa bir bəla üz verdi və bağ yanıb qapqara oldu. Səhər tezdən onlar bir-birilərini səslədilər: "Əgər meyvə dərəcəksinizsə, bağınıza erkən çıxın". Onlar aralarında xısın-xısın danışa-danışa yola düzəldilər: "Oraya -sizin yanınıza bu gün heç bir kasıb soxulmasın". Və onlar buna qadir olduqlarını güman edərək, səhər yola çıxdılar. Bağı görəndə isə dedilər: "Biz həqiqətən də azmışıq! Yox, biz hətta bağımızdan məhrum olmuşuq!" Onlardan insaflısı dedi: "Məgər mən sizə demədimmi ki, Allaha təriflər deyəsiniz!". Onlar dedilər: "Rəbbimizə təriflər olsun, biz həqiqətən də haqsızlar olmuşuq!". Onlar bir-birilərinə tənə vurmağa başladılar. Dedilər: "Vay halımıza! Biz həddi aşanlardan olmuşuq. Bəlkə Rəbbimiz bağdan daha yaxşısını bizə əvəz verər. Axı Biz hər şeyi Rəbbimizdən istəyirik". (Qələm surəsi, 17-32)**

Təəssüf ki, insanların əksəriyyəti dünyada ikən peşman olmaları və tövbə edib saleh əməllər etmələri üçün gələn tənbehləri şərait və şərtlər dəyişəndə, yenə bir fürsət veriləndə tez yaddan çıxarırlar. Bu tənbehi görməməzlik

üzündən əvvəlki vəziyyətlərinə qayıdanların tövbə etmədikləri müddət ərzində nankorluqları əvəzsiz qalmayacaq.

Hz. Salehin peyğəmbər olaraq göndərildiyi Səmud xalqının başına gələnlər də bu qəbildəndir. Allahın elçisi onları açıq şəkildə tənbeh etdiyi, peşman olacaqlarını, əzabla qarşılaşacaqlarını bildirdiyi halda, onlar təkidlə üsyan etməyə davam etmişdilər. Əlbəttə, Allah vədindən dönməzdir və bu insanlara vəd etdiyi əzabı onlara göstərmişdir:

**Saleh dedi: "Bu, dişi dəvədir. Onun da, sizin də hər gün çeşmədən su içmək üçün məlum vaxtlarınız vardır. Ona əziyyət verməyin, yoxsa böyük günün əzabı sizi yaxalayar". Onlar isə onu kəsdilər, sonra peşman oldular. Onları əzab yaxaladı. Həqiqətən bunda bir ibrət vardır, onların çoxu isə inanmır. Həqiqətən, sənin Rəbbin qüdrətlidir, rəhmlidir. (Şüara surəsi, 155-159)**

Yadda saxlayın ki, Allah sonsuz ədalət sahibidir. Edilən heç bir xətanı əvəzsiz buraxmaz. Ancaq Onun razı qalmasından ötrü edilən gözəl əməllərin əvəzini bir neçə qat artıqlaması ilə verir. Səmimi peşmançılıq duyaraq Ona üz tutan hər bir kəsi qurtaracağını və onu rəhməti, cənnətilə mükafatlandıracağı haqda müjdələyir. Bu vəziyyətdə insanın özü-özünə bu sualı verməsi lazımdır: "Dünyada yaşadığın müvəqqəti bir peşmançılığın nə qədər böyük sıxıntı verdiyini bildiyin halda, sonsuzadək davam edəcək peşmançılığı yaşamağın düzgündürmü? Üstəlik, əzabın bir an da olsa, yüngülləşdirilməyəcəyi cəhənnəm həyatındakı peşmançiliği yaşamaq..."

Əlbəttə, heç kim belə peşmançılığı çəkə bilməz. Bu vəziyyətdə insanın görməli olduğu iş məlumdur. Düyada bu fürsəti dəyərləndirmək imkanı hələ hər insan üçün mövcuddur. Bu fürsətdən istifadə edən insan nəinki cəhənnəm əzabından qurtulacaq, həm dünyadakı, həm də cənnətdəki bütün nemətlərin sahibi olacaq. Bu nemətlərə qovuşmaq və cəhənnəm əzabı çəkmədən yaşamaq istəyən hər bir insan həyatını Allahın razılığını qazanmaq prinsipi üzərində qurmalıdır. Qeyd-şərtsiz Onun dəvət etdiyi, qaranlıqlardan nura çıxaran yolun yolçusu olmalıdır:

**Sizi zülmətlərdən işığa çıxarmaq üçün xeyir-duasını üzərinizə salan Odur. Onun mələkləri də sizin üçün dua edirlər. O, möminlərə rəhm edəndir. Allahla görüşəcəkləri gün onların ilk eşidəcəkləri söz "Salam" olacaqdır. O, onlar üçün gözəl mükafat hazırlamışdır. (Əhzab surəsi, 43-44)**

# İNKARÇILAR ÜÇÜN ƏBƏDİ PEŞMANÇILIĞIN BAŞLANĞICI: ÖLÜM

**Hər kəs ölümü dadasıdır. Biz sizi yoxlamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz Bizə qaytarılacaqsınız. (Ənbiya surəsi, 35)**

Ölüm axirətin mövcudluğuna inanmayanlar tərəfindən bir son, yox olma kimi qəbul edilir. Halbuki, bu, çox yanlış bir düşüncədir; çünki ölüm son deyil, əksinə, başlanğıcdır. İman gətirənlər üçün nöqsansız, bütün əksikliklərdən təmizlənmiş sonsuz bir cənnət həyatının başlanğıcıdır. İnkar edənlər üçünsə böyük bir əzabın sonsuza qədər davam edəcəyi cəhənnəm həyatına keçid mərhələsidir.

Bu həqiqəti qavrayan insanlar ölümlə birlikdə dünyada gözəl bir sonu və axirətdə gözəl bir başlanğıcı eyni anda qazanarlar. İnkar edənlər isə onlara əvvəlcədən xəbər verilən bu həqiqəti qulaqardına vurmağın əvəzedilməz peşmançılığı ilə qarşılaşarlar. Sonsuza qədər hər an bu peşmançılığı hiss edər və bundan qurtulmanın da heç bir yolunu bula bilməzlər.

Insanların əksəriyyəti ölümlə qarşılaşana qədər onun haqqında fikirləşmək istəməsələr də, bu, qəti olaraq gerçəkləşən bir hadisədir. Çünki Allah ölümü dünya həyatının nəticəsi olaraq yaradıb. İndiyə qədər heç bir insan ölümü özündən uzaqlaşdırmağı bacarmayıb. Heç kimin malı, pulu, etibarı, dostları bu məsələdə ona yarlımçı ola bilməyib.

Hər insan mütləq ölümlə qarşılaşır. Quranda bu həqiqət bir çox ayədə xəbər verilir:

**Harada olursunuz olun, ölüm sizi haqlayacaqdır, hətta yüksəldilmiş qalalarda olsanız belə... (Nisa, surəsi 78)**

**De: "Qaçdığınız ölüm sizi haqlayacaqdır. Sonra isə siz qeybi və aşkarı bilən Allaha qaytarılacaqsınız və O, etdiyiniz işlərdən sizə xəbər verəcəkdir. (Cümüə surəsi, 8)**

**Allah əcəli çatmış kəsə heç vaxt möhlət verməz. Allah nələr etdiyinizdən xəbərdardır! (Münafiqun surəsi, 11)**

Elə isə, ölümü və ölümdən sonra qarşılaşılacaq həyatı düşünməmək insanı bu həqiqətlə üz-üzə gəlməkdən qurtara bilərmi?- əlbəttə ki, xeyr! İnsan ölüm qarşısında çarəsiz olduğu üçün bu vəziyyətdə edilməli ən ağıllı davranış Allahın qəti olaraq olacağını bildirdiyi axirət həyatına indidən hazırlaşmaqdır.

Dünya həyatında axirəti fikirləşməyənlər ölümlə ona hazır olmamışdan əvvəl qarşılaşırlar. “İndi necə olsa, cavanıq, yaşamaqdan ləzzət alaq, qocalanda axirəti fikirləşərik”, -deyənlər bəlkə də heç vaxt belə bir fürsətləri olmayacağını bilirlər. Çünki ölüm Allahın təqdir etdiyi anda gerçəkləşir. İnsan qocalmadan, gənc yaşda da ölə bilər. Bu vəziyyətdə ancaq gələcəklə bağlı planlar hazırlayıb, Allahın əmrlərini yerinə yetirməyi gecikdirmək insanın böyük peşmançılıq yaşamasına gətirib çıxarır.

Bütün həyatını Allahı fikirləşmədən yaşayanlar ancaq ölümü hiss edəndə belə peşmançılığa mübtəla olurlar. Çünki belə bir tövbə ancaq ölüm qorxusundan yaranan, səmimi olaraq düzəltməyə niyyəti olmayan, dolayısı ilə də Allah qatında qəbul edilməyən bir tövbədir. Bəzi adamlar bu həqiqəti bildikləri halda, bütün həyatları boyunca ancaq özləri üçün yaşayan və onlara verilən möhlətin sona çatdığını anladıqlarında mənfəət yollarının qalmadığını görmənin çaşqınlığı içində özlərini qurtarmağa çalışmışdılar.

Ancaq bununla heç bir nəticəyə nail ola bilməzlər. Çünki Allah onların qeyri-səmimiliyinə şahiddir. Ayələrdə də bildirildiyi kimi, Allah insanların daxilində olanı, heç kimin bilmədiyi ən gizli sirləri də biləndir. O, ölümlə bağlı tövbəni qəbul etməyəcəyini belə xəbər vermişdir:

**Yoxsa pis əməllər tutub da, özlərindən bir kəsə ölüm gəlib çatanda “mən indi tövbə etdim” deyənlərlə, kafir qalaraq ölənlər üçün qəbul ediləcək tövbə yoxdur. Onlar üçün üzücü bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

Allah belə insanlara bir fürsət veriləndə, yenə nankorluq edəcəklərini bir çox ayədə bildirmişdir. Bu mövzuda bir ayədə belə buyrulur:

**Sən onların cəhənnəm odu üzərinə qoyularkən "Kaş ki, biz geri qaytarılaydıq, Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq", -dediklərini görəydin! Beləliklə, əvvəllər gizlətdiklərinin əvəzi onlar üçün aydın oldu. Əgər onlar geri qaytarılsaydılar belə, yenə də onlara qadağan olunmuşlara qayıdardılar. Axı onlar yalançıdırlar. (Ənam surəsi, 27-28)**

Buna görə də "necə olsa, axırda iman gətirər, tövbə edərəm" kimi düşüncəyə qapılmaq çox səhvdir və insanları cəhənnəm əzabından qurtara bilməz. Elə isə, insan ölümlə qarşılaşanda özü üçün əbədi bir peşmançılığın başlamasını istəmirsə, bu dünyada mütləq Rəbbinə qovuşacağını və dünyada etdiklərinin hesabı sorulacağını yadında saxlayaraq yaşamalıdır.

## İnkar edənlərin ölüm anındakı peşmançılıqları

Yaşadıqları qısa müddət ərzində insanlara dəfələrlə cənnət və cəhənnəmin varlığı, axirət üçün hazırlaşmalarının vacibliyi bildirilir. Ancaq inkarçılar hər dəfə üzlərini çevirir və onlara verilən fürsətləri dəyərləndirə bilmirlər. Belələrinin ölümlə qarşılaşanda yaşadıqları böyük peşmançılığın əsl səbəbi də öz əlləri ilə özlərini bu vəziyyətə salmalarıdır. Axı heç kim onları məcbur etməyib, öz iradələrilə hərəkət edərək, bu pis nəticəni seçiblər.

Inkarçılar bu səhv seçimin nəticəsində ölərkən əzabı çəkməyə başlayırlar. Bu əzabın başlanğıcı isə ayələrdə də bildirildiyi kimi, ölüm anında yaşanan böyük qorxudur. O gün insanların yaşadığı qorxudan Quranda belə bəhs edilir:

**Qıçlar bir-birinə dolaşanda, o günü insan sənin Rəbbinə tərəf sürüləcəkdir. Çünki o, nə Quranı təsdiq edib, nə də namaz qılıb. Lakin yalan hesab edib və haqdan üz döndəribdir. Sonra isə lovğa-lovğa öz ailəsinin yanına gedibdir. Vay halına, ey insan, vay! Sonra yenə də vay halına, vay! (Qiyamə surəsi, 29-35)**

Ancaq unutmamaq lazımdır ki, bu qorxunu ancaq dini həqiqətləri inkar edənlər yaşayırlar. Çünki iman gətirən insanlar bütün həyatlarını Allah üçün yaşadıqlarına görə qəlbləri ümidlə doludur. İnkar edənlər isə ölümlə birlikdə böyük bir peşmançılıq yaşayırlar, ancaq bu, onlara veriləcək əzabların heç birinin qarşısını almağa kifayət etməyəcəkdir. Allah inkar edənlərin canlarının böyük əzabla və çətinliklə alınacağını bildirir:

**...Sən bu zalımların ölüm girdabında olduğunu, mələklərin isə əllərini uzadaraq: "Canınızı çıxardıb verin! Allaha qarşı haqsız sözlər dediyinizə və Onun ayələrinə təkəbbürlə yanaşdığınıza görə bu gün sizi alçaldıcı əzabla cəzalandıracağıq", -diklərini bir görəydin! (Ənam surəsi, 93)**

**"Bəs onda mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda, onların halı necə olacaq?!**

**(Məhəmməd surəsi, 27)**

İnkarçıların ölüm anında yaşadıqları bu vəziyyəti dünya şərtləri ilə anlamaq əlbəttə, mümkün deyil. Ancaq Allah insanların düşünməsi və belə bir vəziyyətlə üzləşməkdən çəkinmələri üçün bunu əvvəlcədən xəbər vermişdir. Ölüm mələkləri ayələrdə də açıqlandığı kimi, inkar edənlərin kürəklərinə və üzlərinə vura-vura canlarını alacaqlar.

Onlar bir yandan fiziki ağrı hiss edəcəklər, bir yandan da əlbəttə, bu əzabla birlikdə peşmançılıq yaşamağa başlayacaqlar. Çünki həmin andan etibarən qayıtmağa imkanları qalmamışdır. Həmçinin, bunu da bilmək lazımdır ki, ölüm anında insan başına gələnləri bəlkə də həmişəkindən daha aydın şüurla dərk edir. Əslində isə, ölümlə insan üçün daha sonsuz bir həyat başlayır.

Ölüm ancaq bir keçid mərhələsi, ruhun bədəndən ayrılaraq sonsuzluq məkanına gedişidir.

Inkarçılar canları alınarkən onlara çəkdirilən əziyyətdən başa düşürlər ki, artıq sonsuza qədər davam edəcək böyük bir əzabla üz-üzə durublar. Bütün həyatı boyunca Allahın dinindən üz çevirənlər həmin an onları bu əzabdan qurtarması və bağışlaması üçün bütün gücləri̇lə Allaha yalvararlar. Peşman olaraq, yaşamaları, saleh əməllər işləmələri və itirdiklərinin əvəzini çıxmaları üçün bir fürsət də verməsini arzulayarlar.

Ancaq bu istəkləri qəbul edilməz, çünki onlara Quran ayəsinin ifadəsilə desək, “nəsihət alanın ala biləcəyi qədər möhlət” verilmiş, cənnət və cəhənnəm həyatı xatırladılmış, amma onlar bilə-bilə bu həqiqətlərdən üz döndərmişlər. Belələrinə imkan verilsə belə, bütün peşmançılıqlarını yaddan çıxararaq, yenə inkarı seçəcəkləri Quranda belə bildirilmişdir:

**Elə ki onların birinə ölüm gəldi, deyər: "Rəbbim, məni dünyaya qaytarın ki, bəlkə hədər etdiyim ömür müqabilində sonda xeyir əməllər tutam". Əsla! Onun bu sözləri boş sözdür, çünki dirildiləcəkləri günə qədər onların arxasında bir sədd vardır. (Muminun surəsi, 99-101)**

Inkar edənlər dünyada Allaha qəsdən səcdə etməmiş, Onun hökmlərini yerinə yetirməmiş və Onun əmr etdiyi gözəl əxlaqı qəbul etməkdən uzaq olmuşlar. Ölüm gələndə isə nə qədər istəsələr də, buna güc çatdıra bilməyəcəkləri belə açıqlanır:

**O gün qıçlar açılar və onlar səcdəyə dəvət olunarlar, lakin onlar bunu edə bilməzlər. Gözləri zəlilcəsinə yerə dikilər. Halbuki onlar dünyada sağ-salamat ikən səcdəyə dəvət edilirdilər.**

**(Qələm surəsi, 42-43)**

Ölümlə birlikdə Allahın vəd etdiyi hər bir hadisənin olduğunu dərk edən bu insanların peşmançılığını artıran bir məsələ də var. Onların dünyada ikən inanmadıqları, sözlərini ciddi qəbul etmədikləri möminlər o gün inkar edənlərin çəkdiyi əzabların heç birinə düçar olmazlar. Onlar bütün həyatlarını

səmimiyyətlə, Allahın razılığını istəyərək keçirdiklərinə görə, sonsuza qədər hər şeyin ən gözəli ilə mükafatlandırılacaqlar. İnkarçılardan fərqli olaraq, onların canı heç əziyyət verilmədən "yavaş" alınır (Naziat surəsi, 2). Ayədə bildirildiyinə görə, mələklər ölüm anında möminləri salamlayar və onlara cənnət müjdəsini verərlər:

**O kəsləri ki, onların canını onlar pak halda ikən alaraq deyəcəklər: "Sizə salam olsun! Əməllərinizin əvəzi olaraq cənnətə daxil olun!" (Nəhl surəsi, 32)**

Bu, inkar edənlər üçün daha bir mənəvi əzabdır. Çünki dünyada möminlərə verilən imkan və fürsətlər onlara da verilmişdi. Ancaq onlar dünya həyatının keçici mənfəətlərindən istifadə edə bilmək məqsədilə bilə-bilə cənnəti itirmişlər. Dünyanın müvəqqəti bir sınaq yeri, axirətin əsl həyat olduğu onlara xatırladılanda, bunu başa düşmək, dünyada axirət üçün faydalı ola biləcək əməllər tutmağı istəməmişlər.

Halbuki Allahın əmr etdiyi gözəl əxlaqı yaşamaq, saleh bir mömin olmaq ancaq səmimi niyyət etmək və bu niyyətdə iradə göstərməklə hər insan üçün mümkündür. Ölüm anında bütün bunları düşünmək inkar edənlərin içindəki peşmançılığı daha da çoxaldır.

Allah bir ayədə "**Yoxsa pis əməllər törədənlər elə hesab edirlər ki, həyat və ölümdə Biz onları iman gətirib əməlisaleh olanlarla eyni edəcəyik? Onlar nə pis mühakimə edirlər!" (Casiyə surəsi, 21)** -deyərək, hər kəsin yaşayış tərzinə görə ancaq haqq etdiyinin əvəzini alacağını xəbər verir.

Bununla yanaşı, cəhənnəm əzabının onlar üçün hazırlandığını bilməyin yaratdığı qorxu da inkarçıların peşmançılıqlarını qat-qat artıracaqdır. Çünki o ana qədər ancaq canlarının əziyyətlə alınmasının verdiyi əzabı yaşamışdılar, sonra onları nələrin gözlədiyini çox yaxşı başa düşmüşdülər.

Inkar edənlərin ölümlə başlayan bu peşmançılıqları sonsuza qədər davam edəcəkdir. Hər dəqiqə, hər saat və hər gün heç azalmayan əzabın içində qalacaq və peşmançılıqdan heç vaxt qurtula bilməyəcəklər. Halbuki belə böyük və sonsuz bir peşmançılığı yaşamamaq insanın öz əlindədir. Ölümün və axirətin həqiqətini başa düşmək üçün onlarla qarşılaşmağı gözləməyə ehtiyac yoxdur. İnsan üçün Allahın vədi kifayətdir.

Ölümdən sonra Allahın ədaləti qəti olaraq, öz yerini tapacaq. İnkar edənlər cəhənnəmlə cəzalandırılacaq, iman edənlər cənnətə qovuşacaqlar. Elə isə, hələ ki ölümlə qarşılaşmayan hər insanın edəcəyi ən ağıllı davranış Allaha sığınmaq və Onun rəhmətini istəməkdir. Eyni zamanda, Allahın insanlara yol göstərici kimi göndərdiyi Quranı çox yaxşı öyrənmək və onun göstərdiyi yola uyğun yaşamaqdır.

Ölüm həqiqətini düşünməyərək, onu özündən uzaqlaşdırmaq yox, əksinə, ölümün çox yaxın olduğunu fikirləşərək hərəkət etməyin insana faydası var. Allaha üz tutan insan dünyada və axirətdə Rəbbinin razılığını qazanır və özü də razı salınaraq, cənnətə düşür:

**Ey rahatlanmış kəs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə qayıt! Mənim bəndələrim içərisinə daxil ol! Cənnətimə gir! (Fəcr surəsi, 27-30)**

Ölümün peşmançılığından qurtulmaq və cənnətin sonsuz gözəlliklərinə qovuşmaq istəyən insan ölümü və ölümdən sonrakı həyatı indidən düşünməli və onu yaradan Rəbbinin yolunu seçməlidir.

# HESAB GÜNÜNÜN PEŞMANÇILIĞI

**Sur çalınacaq və Allahın istədiyi kəslərdən başqa göylərdə və yerdə kim varsa, düşüb öləcəkdir. Sonra sur bir daha çalınacaqdır, onlar qəbirlərindən çıxıb baxışacaqlar. Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməl kitabı ortaya qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcək. Onların arasında haqla hökm veriləcək və onlara heç bir haqsızlıq edilməyəcəkdir. Hər kəsə etdiyi əməlin haqqı tam veriləcəkdir. Axı O, onların tutduqları əməlləri çox yaxşı biləndir. (Zumər surəsi, 68-70)**

Dünyaya gəlib-getmiş bütün insanlar hesab günü dirildiləcəklər. Ancaq inkar edənlər üçün diriliş anı çətin keçəcək. İnkarçıların diriliş anındakı çaşqınlıqları və o vəziyyətdəki danışıqları Quranda belə xəbər verilir:

**Onlar deyərlər: "Vay halımıza! Uyuduğumuz yerdən bizi kim qaldırdı? Bu ki Mərhəmətlinin vəd etdiyidir, elçilər doğru deyirlərmiş!" (Yasin surəsi, 52)**

**Haqq olan vədə yaxınlaşanda kafirlərin gözləri bərələcək: "Vay halımıza ki, biz bundan bixəbər olmuşuq! Bəli, biz haqsız olmuşuq", - deyəcəklər. (Ənbiya surəsi, 97)**

"Vay halımıza!" nidası onların yaşadıqları böyük qorxu və peşmançılığın ifadəsidir. Çünki həyatları boyu onları axirətlə tənbeh edib, qorxudan insanların doğru söylədiklərini yenidən dirildikləri gün başa düşəcəklər. Dolayısı ilə onlara vəd edilən başqa hadisələrin də başlarına gələcəyini artıq anlayacaqlar. Bir zamanlar həqiqət olduğuna inanmadıqları əzabı çəkməyə məcbur ediləcəklər və qurtulmaq imkanları da olmayacaq.

Inkar edənlər dirilişdən sonra Allahın hüzuruna gətiriləcəklər və bütün əməllərindən dolayı sorğu-suala çəkiləcəklər. Bu hesablara görə də barələrində hökm veriləcək. Bundan ötrü onlar kimi dünyada Allahın qoyduğu

məhdudiyyətləri tanımayan, qürurlanaraq hərəkət edən insanların hamısı birlikdə Allahın hüzuruna gətiriləcəklər:

**Sur səslənən gün bölük-bölük gələcəksiniz. (Nəbə surəsi, 18)**

Bu hesab günü inkarçılar heç nəyin Allahın razılığını qazanmaqdan və Onun əzabından qorunmaqdan daha əhəmiyyətli olmadığını anlayarlar. Allahın gücünü və varlığını təsdiqləyən dəlillər açıq olduğu halda və Allah Onun razılığını qazanmağın yollarını göstərməsinə baxmayaraq, bu fürsətdən nə üçün yararlana bilmədiklərini fikirləşdikcə yaşadıqları peşmançılıq daha da şiddətlənər. Danışıqlarından içlərindəki peşmançılıq açıq-aşkar hiss edilər:

**O gün haqsız kəs öz əllərini dişləyərək deyəcəkdir: "Kaş mən peyğəmbərlə birgə yol tutaydım! Vay halıma! Kaş filan-filan olmuşu özümə dost görməyəydim! Zikr mənə gəldikdən sonra o, məni ondan yayındırdı. Doğrudan da şeytan bərk ayaqda insanı qoyub qaçar." (Furqan surəsi, 27-29)**

Inkar edənlər hesab günü bütün bunları düşünərkən tamamilə öz hallarının qeydinə qalarlar. Belə ki, nə uşaqlarını, nə həyat yoldaşlarını, nə analarını, nə də atalarını gözləri görməz. Allah bu vəziyyəti Quranda belə təsvir edir:

**Qulaqbatırıcı səs gələndə, o gün insan öz qardaşından qaçar, öz anasından və atasından, həyat yoldaşı və oğlanlarından da. O gün onlardan hər kəsin özünə kifayət edəcək işi olacaqdır. (Əbəsə surəsi, 33-37)**

Qohumluq əlaqələrinin daha onlar üçün heç bir əhəmiyyəti qalmamışdır. Bu adamlar üçün əsas olan yeganə məsələ Allahın əzabından qurtula bilməkdir. Bunun müqabilində isə övladlarını, həyat yoldaşlarını, bacı və qardaşlarını fidyə olaraq verməyi də təklif edərlər:

**O gün səma ərimiş mis kimi, dağlar da lazımsız yun kimi olacaqdır və dost dostun halını soruşmayacaqdır. O gün onlar bir-birilərinə göstəriləcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyəcəkdir. Oğlanlarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş qohum-əqrəbasını, yerdə olan kimsələrin hamısını da, təki sonra bu, onu xilas etsin. Xeyr! O dəhşətli atəşdir! (Məaric surəsi, 8-15)**

Əlbəttə, hesab günü inkar edənlərin sərf etdikləri bu əmək nəticəsiz qalacaq. Həmin insanların dünyada ikən mal, məqam və övlad sahibi olmaq ən böyük arzuları olmuşdu. Hətta bu məqsədlərinə çata bilmək üçün bütün həyatlarını sərf etmişdilər. Ancaq hesab günü bunların heç birinin dəyəri olmadığını başa düşəcəklər. Allahın yanına gətirildikləri an inkarçıların yox olmaq istədikləri, möminlərin isə həvəslə gözlədikləri və sevincli olduqları andır. Allah bu anı ayələrdə belə təsvir edir:

**O gün parlaq üzlər, gülər və şən üzlər də olacaqdır. O gün üzərinə toz çökmüş üzlər, his basmış üzlər də olacaqdır. Bunlar isə kafirlər və pozğunlardır. (Əbəsə surəsi, 38-42)**

O gün inkarçıların sahib olduqları ən qiymətli şey Allahın razılığını qazanmaq məqsədi ilə etdikləri yaxşı əməllərdir. Ancaq inkar edənlər əbədi həyatlarını qurtara biləcək bu qiymətli xəzinəyə malik deyillər. Həyatları boyu hesab günü Allaha təqdim edə biləcəkləri, ortaya çıxaracaqları bir yaxşılıq və xeyirxah iş etməmişlər. İman gətirmədiklərinə görə özləri yaxşı əməl kimi qəbul etdikləri işlər də hədər getmişdir. Allah bu həqiqətə Quranda belə diqqət çəkir:

**De: "Əməllərinə görə ən çox ziyana düşənlər barədə sizə xəbər verəkmi? O kəslər ki, özləri yaxşı işlər gördüklərini güman etdikləri halda, onların dünya həyatındakı cəhdləri boşa çıxmışdır". Bunlar öz Rəbbinin ayələrinə və onunla görüşə inanmayan, buna görə də əməlləri hədər getmiş kəslərdir. Qiyamət günü Biz onlar üçün heç mizan-tərəzi də qurmayacağıq. (Kəhf surəsi, 103-105)**

Dini inkar edənlər axirət gününün mövcudluğuna həmişə şübhəylə yanaşdıqları üçün o günə hazırlanmağa ehtiyac hiss etməmiş, ancaq keçici olan həyatda mal toplamaqla, nəfslərinin istəklərinə tabe olmaqla ömürlərini keçirmişlər. İndi isə heç cür düzəldə bilməyəcəkləri bir peşmançılıqla qarşı-qarışyadırlar:

**Deyəcəklər: "Vay halımıza, bu ki, haqq-hesab günüdür!" Onlara deyiləcək: "Bu, sizin yalan hesab etdiyiniz ayırdetmə günüdür." (Saffat surəsi, 20-21)**

Üstəlik, dünyada etmiş olduqları bütün vicdansızlıqlar, pisliklər və nankorluqlar Allah qatında nöqsansız olaraq ortaya çıxarılacaq. Və onlar da etdikləri günahlara şahidlik edəcəklər. Bu vəziyyət Quran ayələrində belə ifadə edilir:

**Onlar sənin Rəbbinə cərgə-cərgə göstəriləcəklər (və onlara deyiləcək): "Hüzurumuza sizi ilk dəfə xəlq etdiyimiz görkəmdə gəldiniz. Siz isə iddia edirdiniz ki, Biz sizə müəyyən bir vaxt təyin etməyəcəyik". Əməl dəftəri ortaya qoyulacaq və sən günahkarların onda olanlardan necə qorxuya düşdüklərini görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə dəftərdir ki, nə kiçik, nə də böyük bir günahı buraxmadan hamısının hesabını aparmışdır!". Onlar tutduqları əməllərini göz qabağında görəcəklər. Sənin Rəbbin heç kimə haqsızlıq etməz.**

**(Kəhf surəsi, 48-49)**

**O gün insanlar əməlləri onlara göstərilsin deyə, bölük-bölük yerlərindən sıçrayıb çıxarlar: "O gün əməlləri özlərinə göstərilmək üçün insanlar qəbrlərindən dəstə-dəstə çıxacaqlar. Kim bir zərrə qədər xeyir iş tutubsa, onu da görəcəkdir. Kim bir zərrə qədər şər iş tutubsa, onu da görəcəkdir. (Zilzal surəsi, 6-8)**

Allahın Quran ayələrində bildirdiyinə görə, bundan sonra növbə kitabların verilməsinə gəlir. Kitablar möminlərin sağ tərəflərindən verildiyi halda, inkar edənlərin sol tərəflərindən verilir. İnkarçılar ölüm mələkləri yanlarına gəlib canlarını aldığı andan peşmançılıq hiss edirlər. Bir peşmançılığı da kitabları əllərinə veriləndə keçirərlər. Allaha qarşı etdikləri günahları görmək istəməz, bir az tez yox olmağı təmənni edərlər. Onların bu vəziyyətləri ayələrdə belə ifadə edilir:

**Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Onda mən haqq-hesabımı da bilməzdim. Kaş ölüm birdəfəlik olaydı! Mal-dövlətim də məni qurtarmaz. Hökmranlığım da məhv olub getdi." (Haqqə surəsi, 25-29)**

**...O gün insan öz əllərinin etdiyi əməlləri görəcəkdir və kafir deyəcəkdir: "Kaş torpaq olaydım!" (Nəbə surəsi, 40)**

**Əməl dəftəri arxasından verilənə gəlincə, o, ölümü haraylayacaqdır, o, cəhənnəm odunda yanacaqdır. Halbuki o, dünyada öz ailəsi içərisində şad idi. Heç vaxt Rəbbinə qayıtmayacağını zənn edirdi. Xeyr! Axı Rəbbi onu görürdü. (İnşiqaq surəsi, 10-15)**

Bütün bunları görən inkarçılar dünyada yaşadıqları vaxt ərzində nə qədər böyük bir fürsəti qaçırdıqlarını başa düşərlər. Bunu anlayanda da o böyük sıxıntını, yəni peşmançılığı ən şiddətli şəkildə yaşayarlar. Lakin bunun əksinə, möminlərin sevinc içində olduqlarına şahid olarlar. Bunu görən inkarçılar daha

çox peşmançılıq çəkərlər. Çünki dünyada ikən inadkarlıqla möminlərin hər çağırışına qarşı çıxmış və özlərinin daha ağıllı olduqlarını düşünərək, onlara arxa çevirmişdilər.

Amma bir ayənin ifadəsilə desək, "dəqiq tərəzilər" qoyulmuşdur. Hamı kitabında yazılan əməllərinə görə cənnətə ya da cəhənnəmə atılacaqdır. Hesab günü inkarçılar hara gedəcəklərini əvvəlcədən başa düşər və buna görə də çox qorxarlar. Belələrinin yaşadıqları qorxu bir ayədə belə bildirilir:

**Sən haqsızların qazandıqları (günahların cəzasından) necə qorxduqlarını görürsən. Bu isə mütləq başlarına gələsidir...**

**(Şura surəsi, 22)**

Sonra Allahın sonsuz ədaləti təcəlla edər və hər kəsə etdiklərinin əvəzi bir zərrə belə əksik olmadan verilər:

**Biz Qiyamət günü üçün ədalət tərəziləri quracağıq. Heç kəsə heç nədə haqsızlıq edilməyəcəkdir. Əməli bir xardal dənəsi ağırlığında belə olsa, Biz onu gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir. (Ənbiya surəsi, 47)**

Möminlər asan hesaba çəkildikləri halda, inkar edənlərin hesabı çox çətin olar. Allahın dünyada onlara bəxş etdiyi hər nemətdən bir-bir hesaba çəkiləcəklər. Allahın əmr və tövsiyyələrinə tabe olub-olmadıqları, harada nankorluq etdikləri, içlərindəki üsyankar fikirlər, pis sözlər, qulaq ardına vurduqları tənbehlər kimi həyatlarının hər anıyla bağlı əməllər barədə hesab verəcəklər. Ancaq qeyri-səmimi bəhanələri həmin gün keçməyəcək, hətta üzr istəmələrinə də icazə verilməyəcək. O gün inkarçıların qarşılaşacağı vəziyyət Quranda belə təsvir edilir:

**Yalan hesab edənlərin o gün vay halına! Bu, elə bir gündür ki, danışa bilməzlər, üzrxahlıq etməyə də onlara izn verilməz. Yalan hesab edənlərin o gün vay halına! Bu, sizi və sizdən əvvəlkiləri bir yerə cəm etdiyimiz ayırdetmə günüdür. Əgər bir hiyləniz varsa, Mənə qarşı qurun! Yalan hesab edənlərin o gün vay halına! (Mürsəlat surəsi, 34-40)**

Hesab tərəzisinin yaxşılıqlar toplanan gözü yüngül gələn inkarçılar ayədə deyildiyi kimi, "**...artıq nə tədarük etdiyini bilmişdir**" və gedəcəkləri yer də məlum olmuşdur (Təkvir surəsi, 14).

**Bu əzablı yer ayələrdə "haviyə" olaraq adlandırılmışdır: "Kimin yaxşı əməllərinin tərəzisi ağır gələrsə, o xoş güzaran içərisində olacaqdır. Kimin tərəzisi yüngül gələrsə, onun anası cəhənnəm uçurumu olacaqdır (onu cəhənnəm uçurumu ağuşuna alacaqdır). Onun nə olduğunu sən haradan biləsən?! O, çox qızmar bir oddur! (Qariə surəsi, 6-11)**

Bütün bunlar hesab günü inkar edənlərin yaşayacaqları böyük peşmançılığın şiddətini başa düşməkdən ötrü çox əhəmiyyətlidir. Çünki o gün gələndə insan peşman olmaq üçün gecikmiş olacaq. Əgər burada anladılanları fikirləşib, Allahın razı qalacağı gözəl davranışlarını çoxaldarsa, yuxarıdakı ayədə bildirildiyi kimi "tərəzisi ağır gələcəkdir". Ancaq bu şəkildə əbədi peşmançılıqdan qurtula biləcəkdir.

# CƏHƏNNƏMDƏKİ PEŞMANÇILIQ

**O od, uzaq məsafədən onları görəndə, onlar onun qəzəbli səsini və uğultusunu eşidərlər. (Furqan surəsi, 12)**

## İnkarçıların cəhənnəmi görəndə yaşadıqları peşmançılıq

Hesab günü bütün insanlar bir yerə yığışacaq. Hesablarının müəyyən olunmasından sonra inkar edənlər qruplar halında cəhənnəmə aparılacaqlar. Bu çoxluğun arasında tarix boyu Allahın varlığını və dinini inkar etmiş, Allahın ayələrinə qarşı təkəbbür göstərmiş və üz döndərmiş hər kəs olacaq. Aralarında dünyada ikən özlərini zəngin sayan, insanlar arasında etibar qazanan insanlar da tapılacaq. Lakin bu insanlar dünyada onları qurtaracağını zənn etdikləri nəsnələrin o gün heç bir faydası olmadığının şahidi olacaqlar.

Quranda bütün inkar edənlərin alçaldılaraq cəhənnəmə tərəf aparılacaqları xəbər verilmişdir. Cəhənnəmin qapısına gələndə isə qapıda duran növbətçilər günahlarını onlara bir dəfə də etiraf etdirəndən sonra bütün inkar edənləri içəri salacaq və cəhənnəmin qapılarını arxalarınca bağlayacaqlar. Quranda inkar edənlərin cəhənnəmə aparılmaları haqda belə deyilir:

**Kafirlər dəstə-dəstə cəhənnəmə sürüklənəcəklər. Onlar ora gələndə onun qapıları açılacaq və oranın gözətçiləri onlara deyəcəklər: "Məgər sizə öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və bu gününüzə qovuşacağınızı xəbər verən peyğəmbərlər gəlməmişdi?". Onlar "bəli, gəlmişdir" deyərlər. Lakin "əzab" sözü kafirlər üçün haqq oldu! Onlara deyiləcək: "İçərisində əbədi qalacağınız cəhənnəmin qapılarından daxil olun!". Təkəbbürlülərin yeri necə də pisdir! (Zumər surəsi, 71-72)**

**Budur sizə əzab, yer üzündə haqsız olaraq fərəhlənib qürrələndiyinizə görə! Əbədi qalacağınız cəhənnəmin qapılarından daxil olun! Təkəbbürlülərin yeri nə pisdir!**

**(Mumin surəsi, 75-76)**

Bu insanların arasında dünya həyatında Allahın əzabı və cəhənnəmlə qarşılaşacaqlarını bilmədiyini deyə biləcək bircə nəfər də yoxdur. Çünki Allah sonsuz ədaləti ilə insanları dünyada ikən tənbeh edən, onları qəflətdən oyandıran bir şəxs göndərərək, onlara Öz varlığını, hesab gününü, cənnəti, cəhənnəmi xatırlatmışdır.

Buna görə də, inkar edənlərin hamısı cəhənnəm əzabını haqlı olaraq qazandıqlarını təsdiq edəcəklər. Axı dünyada ikən bildirildiyi halda, qürurlanmışlar və onları yaradan Allaha bilə-bilə qulluq etməmişlər. Və bunun əvəzində də Allah bu insanların cəhənnəmə boynu bükük girəcəklərini bildirmişdir:

**...Həqiqətən də Mənə ibadət etməkdə təkəbbür göstərənlər zəlil bir halda cəhənnəmə girəcəklər. (Mumin surəsi, 60)**

Bu insanların bir qismi dünyada özlərinin çox güclü olduqlarını görmüşlər və buna görə də üsyan etmişdilər. Sahib olduqları gücün onları hər cür təhlükədən qoruyacağını zənn etmişdilər. Nə vaxt da onlara cəhənnəmin varlığı, bu dünyada Allahın razılığını qazanmaq üçün yaşamağın vacibliyi, axirətdə cənnət yurdunu istəmələri və Allahın "Qəhhar" (qəhr edən) sifəti xatırladılsa, belə demişdilər:

**Dediklərimiz sözlərə görə Allah bizi bir cəzalandıraydı görək!". "Cəhənnəm onlar üçün bəsdir, onlar oraya girəcəklər. Nə pis bir dönüş yeri! (Mücadələ surəsi, 8)**

Üsyanlarının əvəzində cəhənnəmin qapılarından içəri salınacaqlar və bir də heç vaxt həmin qapılardan kənara çıxmalarına icazə verilməyəcək. Atəşi

gördükləri an inkarçılar etdiklərinə görə bir də çox peşman olacaqlar. Quranda bildirildiyi kimi, cəhənnəmdən heç cürə qaçış yolu olmadığını başa düşəcəklər:

**Günahkarlar cəhənnəm odunu görən kimi oraya düşəcəklərini biləcəklər. Onlar oradan bir xilas yolu tapa bilməyəcəklər. (Kəhf surəsi, 53)**

Dünya həyatında başa düşmək istəmədikləri hər şeyi aydın görəcəklər. Bütün həyatlarını əbəs bir məqsəd uğrunda keçirdiklərini, bir az keçici mənfəət uğrunda sonsuz həyatlarını əzabda keçirəcəklərini başa düşəcəklər.

Dünyada yaşadıqları bir neçə on illiyi çox uzun zənn etmiş və buna görə də axirəti fikirləşməmişdilər. Burada acizliklər və nöqsanlara görə heç vaxt rahat olmayan bir ruh halını yaşamağı nöqsansız, heç bir qüsuru olmayan, yorğunluq, aclıq kimi fiziki vəziyyətlərin də olmadığı, mükəmməl nemətlərlə dolu cənnətdə böyük səadət içərisində yaşamaqdan üstün tutmuşdular.

Amma cəhənnəmin qapılarından içəri daxil olandan sonra daha geriyə qayıtmaq imkanlarının olmadığını başa düşəcəklər. Bu səbəbdən də dünyada sahib olduqları hər şeyi fidyə kimi təklif edərək, əzabdan qurtulmağa çalışacaqlar. Quranda onların bu nəticəsiz səyləri barədə deyilir:

**...Ona qulaq asmayanlar isə yer üzündəkilərin hamısı və bir o qədəri də onların olsa və canlarını qurtarmaq üçün bunu versələr belə, onlar üçün bəd haqq-hesab olacaqdır. Onların varacaqları yer cəhənnəmdir. Nə pis bir yataqdır! (Rəd surəsi, 18)**

Ancaq belələrinin cəhənnəmə girəcəklərini anlayanda göstərdikləri bu səyin heç bir qarşılığı olmayacaq. Allah onların bu səylərindən bir nəticə hasil olmayacağını xəbər vermişdir:

**Bu gün isə nə sizdən, nə də kafirlərdən heç bir fidyə alınmaz. Sizin yeriniz cəhənnəm odudur və siz ona layiqsiniz. Nə pis bir son dönüş yeri! (Hədid surəsi, 15)**

Əlbəttə, inkarçıların bu səylərinin nəticə verməməsinin əhəmiyyətli bir səbəbi var. Allah hələ dünyada ikən cəhənnəm əzabını xatırladaraq, onları tənbeh etmişdir. Və o gün heç bir insanın başqasına kömək edə bilməyəcəyi, onu qurtarmaq üçün heç bir şey verməyəcəyi, lap versə də, bunun qəbul edilməyəcəyi barədə onları xəbərdar etmişdir. İnsanları bu yöndə xəbərdar etmək üçün göndərilən bir ayə belədir:

**O gündən qorxun ki, (o vaxt) heç kəs heç kəsin karına gəlməz, heç bir havadarlıq qəbul edilməz, heç kəsdən bir əvəz alınmaz və onlara heç bir kömək göstərilməz. (Bəqərə surəsi, 48)**

Lakin onlar hər cür xəbərdarlığa baxmayaraq, inkarlarından əl çəkməmiş və bildikləri halda özlərini belə bir nəticəyə hazırlamışdılar. O gün başa düşəcəkləri ən böyük həqiqətlərdən biri də budur ki, özlərinə zülm etdiklərini, yəni öz əməllərinə görə cəhənnəmi qazandıqlarını biləcəklər. Bunu başa düşəndə hiss etdikləri peşmançılıq isə əbədi həyatları boyunca heç vaxt azad ola bilməyəcəkləri bir əzab olacaqdır.

Çünki artıq çox önəmli bir həqiqətlə qarşılaşıblar. Əgər həyatlarını boş məqsədlərə sərf etmək əvəzinə onları Yaradan Allahı razı etməyə çalışsaydılar, bu gün cəhənnəmin qapısında yox, cənnətdə olacaqdılar. Amma onlar doğru olanı etməmişdilər və buna görə də əbədi zülmə düçar olmuşdular. Onlar üçün bir ayədə bildirildiyi kimi “qapıları bağlanmış bir atəş” (Bələd surəsi, 20) vardır.

Yəni cəhənnəmin qapısından içəri daxil olandan sonra bu qapı onlar üçün həmişəlik bağlanacaq. Bu qapının arxasında əbədi yaşayacaqları atəş əzabı vardır. İnkarçılar üçün bu əzabdan heç cürə qaçmaq, ya da qurtulmaq imkanı olmayacaqdır. Allah onların atıldıqları bu atəşi “Hutəmə” adlandırıb:

**Hutəmənin nə olduğunu sən haradan biləsən?! Allahın alovlanan odudur ki, ürəklərə qədər işləyir. O, onların üzünə örtüləcəkdir, özləri isə hündür sütunlara bağlanmış olacaqlar.**

**(Huməzə surəsi, 5-9)**

# İnkar edənlərin cəhənnəmdə qarşılaşacaqları əzab

İnkarçıların cəhənnəmdə sonsuza qədər yaşayacaqları peşmançılıqdan danışmadan öncə orada üzləşəcəkləri əzablardan bəhs etmək daha faydalı olacaq. Çünki insan cəhənnəmdəki əzabın çeşidlərini öyrənmədən, orada çəkəcəyi peşmançılığın necə olacağını da dərk etməz. İnkarçıların yaşadıqları peşmançılıq yuxarıda da qeyd etdiyimiz kimi, cəhənnəmi gördükləri andan başlayır. Cəhənnəmə daxil olarkən və sonra cəhənnəmdəki əzabları yaşayarkən də bu sonu olmayan peşmançılıq davam edər. Allah bu insanların cəhənnəmə girmələrindən sonrakı danışıqlarını belə xəbər vermişdir:

**Rəbbini inkar edənlər üçün cəhənnəm əzabı vardır. Nə pis dönüş yeridir! Onları oraya atanda onlar onun qaynayaraq uğuldadığını eşidəcəklər. O, qeyzdən az qala parça-parça ola. Hər dəfə içərisinə bir dəstə adam atılanda cəhənnəm gözətçiləri onlardan soruşarlar: "Məgər sizin yanınıza bir xəbərdar edən gəlməyib?" Onlar deyəcəklər: "Bəli, bizə bir xəbərdarlıq edən gəlmişdi, lakin biz onu yalançı hesab etdik və dedik: "Allah heç bir şey nazil etməyib, siz isə ancaq böyük bir yoldan çıxmısınız". Onlar deyəcəklər: "Əgər qulaq assaydıq və ya anlasaydıq, cəhənnəm odu əhli içərisində olmazdıq". Onlar öz günahlarını etiraf etdilər. Məhv olsun cəhənnəm odu əhli! (Mülk surəsi, 6-11)**

Ayələrdə də bildirildiyi kimi, inkar edənlər cəhənnəmə atılanda birinci dəhşətli səslə qarşılaşacaqlar. Allah "Mülk" surəsinin 7-ci ayəsində bu səsi "Onları oraya atanda onlar onun qaynayaraq uğuldadığını eşidəcəklər", -deyə təsvir edib. Şübhəsiz ki, inkarçılar bu dəhşətli səsi eşidəndə onları sözlə ifadə olunmayacaq bir sıxıntı və qorxu bürüyəcək.

Allah başqa bir ayədə isə atəşi inkar edənlər üçün hirsindən partlayıb-parçalanacaq şəkildə yaratdığını bildirmişdir (Mülk surəsi, 8). Bu dəhşət verən hadisələrə şahid olan inkarçılar necə bir əzabla qarşılaşacaqlarını başa

düşməyin verdiyi çarəsizliyi yaşayacaqlar. Və yuxarıdakı ayələrdə bildirildiyi kimi, dünyada bunları fikirləşə bilmədiklərinin peşmançılığını etiraf edən danışıqları olacaq. Belə bir sıxıntı yaşamaları isə son dərəcə adi haldır. Çünki qarşılaşacaqları hər əzab bir-birindən dəhşətverici və can yandıran olacaq. Allah ayələrində cəhənnəmin ən pis yer olduğunu bildirmişdir:

**...Nə pis dönüş yeridir o! (Ali İmran surəsi, 162)**

**...Nə pis yataqdır o! (Nisa surəsi, 115)**

**...Onların sığınacaq yerləri cəhənnəmdir. Zalımların sığınacağı necə də pisdir! (Ali İmran surəsi, 151)**

**...Nə pis qərar tutulası yerdir! (İbrahim surəsi, 29)**

Cəhənəm əhli bu pis yerə böyük bir qələbəlik şəklində atılacaq. Bir ayədə "**Onları oraya üzüqoyulu atarlar, yolu azanları da**" (Şüara surəsi, 94) şəklində bildirilmişdir.

Bu ifadələrdən dünyada mal-mülk sahibi, etibarlı insanlar olduqlarını düşünərək, qürurlananlar da daxil olmaqla, bütün inkarçıların cəhənnəm atəşinə dəyərsiz bir yığın halında töküləcəkləri anlaşılır. Dünyada özlərini böyük göstərmələrinin əvəzində onlar həmin gün alçaldılacaqlar. Orda heç vaxt onalara dəyər verilməyəcək. Onlar cəhənnəmin odunu olacaq və atəşin mənbəyi tək sonsuza qədər əzab içərisində qovrulacaqlar:

**Siz də, Allahdan başqa ibadət etdikləriniz də cəhənnəm üçün odunsunuz və siz oraya girəcəksiniz. (Ənbiya surəsi, 98)**

**...Onlar cəhənnəm odunun yanacağıdırlar. (Ali İmran surəsi, 10)**

Quranda bəhs olunan cəhənnəm əzabları çox müxtəlifdir. İnsanlar orada bir ayənin ifadəsilə söyləsək, "bütün zamanlar boyunca" -yəni sonsuza qədər hər an əzabla göz-gözə olacaqlar. Bu əzab növlərindən bəzilərini sadalaya bilərik; məsələn, "Furqan" surəsinin 13-cü ayəsində inkarçıların atəşin sıx yerinə əlləri boyunlarına bağlı şəkildə atılacaqları xəbər verilmişdir.

Məlum olduğu kimi, insanlar darısqal yerdə bir neçə dəqiqədən artıq qalanda çox narahat olur və tez oradan çıxmaq istəyirlər. Bu bir yana, hətta özlərini bağlı və dar yerdə təsəvvür etmək də istəməzlər. Cəhənnəmdə veriləcək əzab isə dünyadakı ilə müqayisə edilməyəcək qədər böyükdür.

İnkarçılar orada həm dar yerə atılacaqlar, həm də olduqları yerdə atəşdə yanacaqlar. Üstəlik, əlləri boyunlarına bağlı olduğu üçün atəşdən qurtulmaq bir tərəfə dursun, heç tərpənməyə də imkan tapa bilməyəcəklər. Əlbəttə, insan bu cür vəziyyəti xəyalında canlandıranda belə çox şiddətli narahtçılıq hiss edər. Bunu yaşamağın necə əzablı olduğu isə artıq məlumdur.

Allah başqa bir ayəsində inkarçıların qapqara tüstüdən kölgə içində olacaqlarını bildirmişdir (Vaqiə surəsi, 43-44). Ancaq kölgə deyiləndə insanlar sərin bir yer başa düşürlər. Halbuki cəhənnəmdəki kölgə dünyadakından tamamilə fərqlidir. Allah bu kölgənin nə sərinlədici, nə də fərəhləndirici olduğunu xəbər vermişdir.

Cəhənnəmdə digər dəhşətli əzab növü insanların əbədiyyən ölməməsidir. Çünki ölüm onlar üçün qurtuluş -əzabdan qurtulmaq üçün bir yoldur. Buna görə də Allah onların ölmələrinə icazə verməyəcək. Ayələrdə xəbər verildiyi kimi**, "onlara hər yandan ölüm gələcəkdir, amma heç vaxt ölməyəcəklər"** (İbrahim surəsi, 17). Yəni dünyada ikən ölümə səbəb olan hər cür hadisəylə orada da üzləşəcəklər və bu hadisələr zamanı hiss edilən əzabları, sıxıntıları, qorxuları real olaraq yaşayacaqlar.

Amma bütün bunlara baxmayaraq, ölməyəcək və yeni əzab növlərilə sonsuz həyatlarına davam edəcəklər. Dünyada bir insan ciddi şəkildə yanandan bir müddət sonra ölür. Oda az bir müddət davam gətirə bilir. Əgər aldığı xəsarətlər ölümcül deyilsə, onda yaraları müəyyən vaxtdan sonra sağalır.

Ancaq cəhənnəmdəki atəş əzabı dünyadakı ilə müqayisə edilməyəcək qədər fərqlidir. Allahı inkar edən insan orada oda atılacaq və dərisi yanıb töküldükcə, daha çox əzab çəkməsi üçün yeni dəri ilə dəyişdiriləcək (Nisa surəsi, 56). Yəni qısa bir müddət ərzində yanıb, ağrısının yox olması kimi bir vəziyyət olmayacaq, əbədi alovlanan atəşin yandırmasının verdiyi bir ağrını yaşayaraq hiss edəcək.

Cəhənnəmdəki başqa bir əzab növü inkarçıların o gün atəşin üzərində tutulub əridilmələridir (Zariyat surəsi, 13). Bunun necə böyük işgəncə olduğunu dünyada ikən qavramaq bir insan üçün mümkün də deyil. Dünyada çox sadə bir yaranın nə qədər şiddətli ağrı verdiyini bilən insan üçün Allahın bu əzabı çox ibrətamizdir. Üstəlik, bütün bunlar varkən, bir yandan da bunlar olacaq:

**Zəncirlərlə bağlanacaqdır. (Haqqə surəsi, 32)**

**Zəncirlərlə və dəmir qandallarla bağlanacaqdır. (İnsan surəsi, 4)**

**Dəmirdən hazırlanmış böyük dəyənəklərlə qamçılanacaqlar. (Həcc surəsi, 21)**

**Bədənləri, alınları, böyürləri və kürəkləri atəşlə dağlanacaqdır. (Tövbə surəsi, 35)**

**Başlarına qaynar su endirilib töküləcək. (Həcc surəsi, 19)**

**Geyimləri qətrandan və atəşdən olacaqdır. (İbrahim surəsi, 50)**

**Qoy onlar onu -qaynar suyu və irini dadsınlar! (Səd surəsi, 57)**

**Çirkabdan başqa onun bir yeməyi də yoxdur. (Haqqə surəsi, 36)**

Yeyəcəkləri isə ancaq zəqqum və darı tikanı olacaq. Allah zəqqumun inkar edənlərin qarınlarında necə əzaba çevriləcəyini belə bildirmişdir:

**Şübhəsiz ki, zəqqum ağacı günahkarların yeməyidir, ərinmiş mis kimi qarınlarında qaynar -suyun qaynaması kimi. "Onu götürün və cəhənnəmin ortasına sürüyün, sonra isə əzabı artırmaq üçün başına qaynar su endirin: "dad, axı sən qüdrətli, kəramətli idin". (Duxan surəsi, 43-50)**

Allah onların orada yedikləri yeməyin "boğazlarında tıxanıb qalacağını" bildirmiş, içəcəkləri irinli suyu isə udqunmağa çalışacaqlarını, amma boğazlarından keçirə bilməyəcəklərini söyləmişdir. Dünyada ikən insanın ən iyrəndiyi və nə iyinə, nə də görüntüsünə dayana bilmədiyi irin sonsuza qədər cəhənnəm xalqının qidası olacaq.

Cəhənnəm əhli bundan böyük əzab hiss edəcək, amma ac olduğu üçün yemək məcburiyyətində qalacaq. Amma yemələrinə baxmayaraq, yenə də doymayacaqlar. Sonsuza qədər ac qalmağın ağrısını da dadacaqlar. Allah yedikləri darı tikanının da onları doyurmayacağını belə bildirib:

**Onlar üçün zariədən (dəvə tikanından) başqa bir yemək olmayacaqdır. O isə nə kökəldir, nə də aclıqdan qurtarır.**

**(Ğaşiyə surəsi, 6-7)**

**Cəhənnəmdə inkarçıların görəcəkləri əzabla bağlı Quranda başqa misallar da var: "Onlar orada ah-nalə içərisində olacaqlar və başqa bir şey eşitməyəcəklər. (Ənbiya surəsi, 100)**

**Orada onlar əsrlərlə qalacaqlar. (Nəbə surəsi, 23)**

**Onlara veriləcək əzab yüngülləşdirilməyəcəkdir.**

**(Ali İmran surəsi, 88)**

**Onlar cəhənnəm odundan çıxmaq istəyəcəklər, lakin oradan əsla çıxa bilməyəcəklər. (Maidə surəsi, 37)**

Bütün bunlar inkar edənlərə təsəvvürə gəlməyəcək qədər böyük əzab verəcək. Bu əzabdan qurtula bilmək üçün canlarının alınmasını istəyəcəklər və bunun üçün də dəfələrlə yalvaracaqlar. Cəhənnəmdəki insanların söhbətləri Quranda bizə belə çatdırılır:

**(Onlar cəhənnəm gözətçisinə): "Ey Malik! Qoy sənin Rəbbin canımızı alıb qurtarsın!" deyəcəklər. O isə: "Siz burada əbədi qalacaqsınız" deyəcəkdir. (Allah deyər): "Biz sizə haqqı çatdırdıq, lakin sizin çoxunuz haqqı sevmədiniz."**

**(Zuxruf surəsi, 77-78)**

Ancaq ayədə də bildirildiyi kimi, Allah dünyada ikən haqq dindən üz döndərdikləri, edilən xəbərdarlıqları dinləmədikləri üçün onların yalvarmalarına cavab verməyəcək və onları həmişəlik əzabın içində saxlayacaq. Burada göstərilənlər dünyada Allahı və axirət gününü inkar edənlərin, cənnət və cəhənnəm mövzusundakı tənbehləri dinləməyənlərin qəti olaraq yaşayacaqları əzablardan bir qismidir. İnkarçıların bu əzablardan başqa, əsla qurtula bilməyəcəkləri böyük bir əzab da var ki, bu, sonsuza qədər insanın ağlından bir an belə çıxmayacaq peşmançılıq hissidir.

Bu hiss bir insanın görə biləcəyi ən qorxulu yer olan cəhənnəmdə əbədilik yaşamaq məcburiyyətində qalmağın verdiyi sıxıntıdır və getdikcə artar. Çünki başdan bəri bildirdiyimiz kimi, inkarçılar cəhənnəm əzabını daddıqları hər an xatırlayacaqlar ki, əgər dünyada doğru yolu seçsəydilər, bunların heç birini görməzdilər. Ancaq bunun gətirdiyi peşmançılıqdan qurtulmaları da mümkün deyil.

# İnkarçıların cəhənnəmdə əbədi olaraq yaşayacaqları peşmançılıq

İnkar edənlər cəhənnəmdəki əzabın şiddətini yaşadıqca, dünya həyatında Allaha iman gətirmədikləri üçün çox böyük bir peşmançılıq yaşayacaqlar. Ancaq bu peşmançılığın onlara heç bir xeyri olmayacaq. Çünki dünyada onlara kifayət qədər fürsət verilmişdi. Amma onlar bunu qiymətləndirə bilməmişdilər. Bunu başa düşəndə onları Allahdan uzaqlaşdıran, Axirəti unutduran və dünyaya bağlayan hər şeyə və hər kəsə lənət edəcək, onlara qarşı çox böyük qəzəb hiss edəcəklər:

**Üzləri odda o yan-bu yana çevriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha itaət edəydik, peyğəmbərə itaət edəydik!". Onlar deyəcəklər: "Rəbbimiz, biz öz ağalarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi yoldan çıxartdılar. Rəbbimiz, onlara ikiqat əzab ver və onları böyük bir lənətə düçar et!".**

**(Əhzab surəsi, 66-68)**

**(Qiyamət günü) hüzurumuza gələndə isə o, deyəcək: "Kaş mənimlə sənin aranda gündoğandan günbatana qədərki uzaqlıq olaydı. Sən nə pis yoldaşsanmış!". (Zuxruf surəsi, 38-39)**

Ayələrdən də göründüyü kimi, inkar edənlər günahı dünya həyatında onları azdıranların üzərinə ataraq, özlərinin əzabdan azad ola biləcəklərini ümid edəcəklər. Halbuki Allah hər kəsə doğrunu bula biləcəyi bir vicdan və onun tətbiq edə biləcəyi bir iradə vermişdir. Hamıya hər ikisi anladılmış və hər kəsə düz də, səhv də bildirilmişdir. Və hər insan öz seçimini sahib olduğu iradəyə uyğun və istəyərək etmişdir.

Bundan başqa, Allah hər kəsin ürəyində yaşadığı imanı da, inkarı da çox gözəl bilir. Buna görə də cəhənnəm əhli arasında insanların inkar etməsinə rəhbərlik edənlər də, onlara tabe olanlar da layiq olduqlarının əvəzini alacaqlar.

O gün heç kim başqasının etdiyi günaha görə məsuliyyət daşımayacaq və heç kimin də günahı başqasına yüklənməyəcək.

Bu insanlar dünya həyatında bir-birilərini günaha sürükləyərkən bəlkə də çox vaxt axirətdə hesab verəcəklərini xatırlamış, amma bunu əhəmiyyətsiz saymışlar. Bir-birilərinə "sən elə, günahı mənim boynuma" demiş və inkar etmələri üçün bir-birilərini həvəsləndirmişlər. Şeytan da bəzi bərli-bəzəkli vədlər verərək, onları inkar etməyə yönəldib. Halbuki Allah: **"...O, yanımıza tək gələcəkdir." (Məryəm surəsi, 80)**, -deyərək, bu vədlərin inkarçılar üçün heç bir faydası olmayacağını əvvəlcədən bildirmişdir.

O gün inkar edənlər tamamilə tək olduqlarını açıq şəkildə görəcəklər. Allahdan başqa onlara nə bir dost, nə də bir yaxın tapılmayacağını da anlayacaqlar. Çünki dünyada arxalarınca getdikləri, özlərinə dost seçdikləri hər kəs cəhənnəmdə onları tərk edəcək. Həmçinin Allahı unudaraq yaxın olduqları Şeytan da onlara xəyanət edəcək və belə deyəcək:

**Artıq iş bitmiş olan zaman şeytan deyər: "Doğrudan da Allah sizə haqq (düzünü) vəd etmişdi. Mən də sizə vəd vermişdim, lakin sizin üçün mən vədə xilaf çıxdım. Axı mən sizin üzərinizdə heç bir hökm sahibi deyildim. Mən sizi ancaq dəvət etdim, siz də səsimə səs verdiniz. Siz də məni qınamayın, özünüzü qınayın. Nə mən sizə bir yardım edə bilərəm, nə də siz mənə. Mən sizin vaxtilə məni (Allaha) şərik qoşmanızı rədd edirəm". Həqiqətən, haqsızlara üzücü bir əzab olacaqdır. (İbrahim surəsi, 22)**

Dost kimi qəbul etdikləri hər kəsin onlara belə xəyanət etdiyini və onları tək buraxdıqlarını görmək inkar edənlərin peşmançılığını daha da çoxaldan bir səbəb olacaq. Artıq Allahdan başqa himayəsinə sığınacaq heç kimin olmadığını çox yaxşı başa düşəcəklər. Ancaq bunu başa düşməyin heç bir xeyri olmayacağını görmək də onları çox sıxıntıya salacaq. O gün bir yandan bir-birilərilə mübahisə edəcək, bir tərəfdən də dünyada etdikləri günahları etiraf edəcəklər:

**Onlar orada bir-biriləri ilə ədavət edə-edə deyərlər: "Allaha and olsun ki, biz açıq-aşkar yol azmışdıq. O zaman ki, biz sizi aləmlərin Rəbbinə tay tutmuşduq. Bizi ancaq günahkarlar yoldan çıxartdılar. Bizə nə havadar çıxan var, nə də səmimi dostumuz vardır." (Şüəra surəsi, 96-102)**

Ayələrdən də göründüyü kimi, inkarçılar çox böyük peşmançılıqla dünyaya yenidən qayıtmağı, iman gətirən insanlardan olub, axirət həyatları üçün onlara fayda verəcək xeyirli işlər etməyi istəyərlər. Ancaq bu diləkləri qəbul edilməz. Bu gün illərlə arxasıyla qaçdıqları pulun, gözəlliyin, etibarın, dünyada qazanmağa çalışdıqları müxtəlif maddiyyatların heç bir mənasının olmadığını görəcəklər. Quranda onların peşmançılıqla dolu olan sözləri var:

**Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Onda mən haqq-hesabımı da bilməzdim. Kaş ölüm bir dəfəlik olaydı! Mal-dövlətim də məni qurtarmaz. Hökmranlığım da məhv olub getdi.". (Deyiləcək): "Onu tutub əl-qolunu bağlayın, sonra isə cəhənnəmə atın! Sonra onu zəncirlə bağlayın! Axı o, böyük olan Allaha iman gətirmirdi və yoxsulu yedirtməyə təşviq etmirdi. Buna görə də bu gün burada onun bir sirdaşı yoxdur." (Haqqa surəsi, 25-35)**

**Cəhənnəm ortaya gətiriləcək gün, o gün insan (günahlarını) yadına salacaqdır. Lakin bu yaddaş artıq onun nəyinə lazımdır?! O, deyəcəkdir: "Kaş həyatım üçün əvvəldən tədarük edəydim!" (Fəcr surəsi, 23-24)**

Bütün bunlarla yanaşı, cənnət xalqının sevincini və şadyanalıqlarını görmək də inkar edənlərin yaşadıqları peşmançılığı çoxaldır. Çünki cənnətdə yaşayan insanlarla öz yaşayışları arasında fövqəladə fərqə şahid olurlar. Axirətdə cənnət əhli ilə cəhənnəm əhli arasındakı böyük fərqə diqqət çəkilib.

Cəhənnəm əhlinin vəziyyəti Quranda "**Gözləri zəlilcəsinə yerə dikilər. Halbuki onlar dünyada sağ-salamat ikən səcdəyə dəvət edilirdilər**" şəklində ifadə edilib (**Qələm surəsi, 43).**

Başqa bir ayədə isə üzlərinin **"tutulmuş" (Qiyamə surəsi, 24)** olduğu bildirilib. Bunun əvəzində, cənnətlə müjdələnən möminlərin üzləri belə tərif edilmişdir:

**O gün parlaq üzlər, gülər və şən üzlər də olacaqdır. (Əbəsə surəsi, 38-39)**

Inkar edənlər cəhənnəmdə qaynar su, irin, qan, zəhərli dəvə tikanı və zəqqumdan başqa heç bir qida tapa bilməyəcəkləri halda, iman gətirənlər cənnətdə bal, süd axan çaylarla, qədəhlərə süzülmüş bir-birindən gözəl içkilərlə, kəsilib azalmayan barlı budaqları əyilmiş, məhsulları aşağı sallanan meyvə ağacları və nəfslərinin istədikləri daha çox nemətlə mükafatlandırılacaqlar. Bir ayədə cənnət xalqının yeməkləri belə tanıdılır:

**Təqva sahiblərinə vəd olunmuş cənnətin təsviri belədir: orada suyu iylənməyən çaylar, tamı dəyişməyən süd çayları, içənlər üçün ləzzətli şərab çayları, təmizlənmiş bal çayları vardır. Orada onlar üçün hər cür mer-meyvələr və öz Rəbbindən bağışlanma vardır. Heç (onlar) cəhənnəm odu içərisində əbədi qalan və mədə-bağırsağını parça-parça edən qaynar su içirdilən kəslər kimidir? (Muhəmməd surəsi, 15)**

Ayədə də bildirildiyi kimi, bu cür mükafatlandırılan adamların ruzusu ilə inkar edənlərin həm aclıqlarını söndürməyə yaramayan, həm də böyük bir əzaba çevrilən ruzuları qətiyyən eyni deyil. Onlar orada saysız dəfə yandırılacaq, saysız dəfə dəriləri əridilib tökülərək təzələriylə dəyişdiriləcək və sonsuza qədər bir parça sərinlik, ya da fərəhlik tapa bilmək üçün yalvararaq kömək istəyəcəklər. Cənnət xalqının kölgəliklərdə, sərinliklərdə nazi-nemət içində olduğunu görəcək və sahib olduqlarından bir az da onlara vermələri üçün yalvaracaqlar. Quranda bu barədə belə deyilir:

**Cəhənnəm əhli cənnət əhlini səsləyərək: "Bizə bir az su və ya Allahın sizə verdiyi ruzudən verin" deyər. Onlar deyəcəklər: "Allah ikisini də inkar edənlərə qadağan etmişdir."**

**(Əraf surəsi, 50)**

Cəhənnəmdə peşmançılıq içində yaşayan inkarçıların bu cür yardım istəməklərinin əsla nəticəsi olmayacaq:

**... Həqiqətən, Biz zalımlar üçün onları çadır kimi əhatə edəcək cəhənnəm odu hazırlamışıq. İmdada çağıranda isə onlara üz-gözü qarsıdan dəmir ərintisinə bənzər bir su ilə kömək ediləcək. Nə pis bir içki, nə pis bir sığınacaq! (Kəhf surəsi, 29)**

Yenə cənnət xalqına atlas və ipəkdən paltarlar, saysız zinətlər, qızıllar, gümüşlər təqdim edildiyi halda, cəhənnəm əhlinə qətrandan və atəşdən hazırlanmış paltarlar geydiriləcək. Onlar zəncirlərə vurulub, dəmir həlqələrlə bağlandıqları "cəhənnəmdən yataqlara" yatırdılıb, üstləri də "cəhənnəmdən örtüklər"lə örtülərkən, möminlər yüksək köşklər və gözəl otaqlarda, yüksəklərdə qurulmuş və "zərifliklə işlənmiş cövhər" taxtlarda, gözəlliyi göz oxşayan döşəklərdə, astarları incə işlənmiş atlasdan olan yataqlarda olacaqlar.

Quranda möminlərin arzuladıqları hər şeyin onlara veriləcəyi, xoşlarına gələcək bir həyat yaşayacaqları, xoşbəxt olacaqları və sevinclə qarşılanacaqları bildirilmişdir:

**...Rəbbi dərgahında onlar üçün istədikləri şeylər vardır...**

**(Şura surəsi, 22)**

**Allah onları o günün şərindən qoruyar və onları gözəllik və sevincə qovuşdurar. (İnsan surəsi, 11)**

İnkarçılar da dünya həyatında əgər Allahın əmrlərinə tabe olaraq, vicdanlı, səmimi və dürüst hərəkət etsəydilər, bu gün cəhənnəm atəşində əzab

çəkməyəcək və cənnət əhli kimi nemətlər içərisində yaşayacaqdılar. Buna görə də inkar edənlər hər dəfə cənnət xalqını fikirləşəndə, peşmançılıqları çoxalacaq. Allah onların çəkdikləri cəhənnəm əzabını və peşmançılıqlarını "sarsıdıcı kədər" kimi göstərmiş və nə vaxt azad olmaq istəsələr, bir daha əzaba düçar ediləcəklərini bildirmişdir:

**Onlar hər dəfə iztiraba görə oradan çıxmaq istəyəndə, yenə oraya qaytarılacaqlar: "Atəş əzabını dadın!" deyiləcək.**

**(Həcc surəsi, 22)**

Çünki cəhənnəm daha geri qayıtmaq mümkün olmayan və peşmançılıq hissinin bir fayda verməyəcəyi, hətta bir məna ifadə etmədiyi yerdir. Mələklər inkarçılar ölən kimi onlara daha sonsuza qədər heç bir gözəlliklə qarşılaşmayacaqlarını xəbər vermişdilər:

**Onlar mələkləri görəcəkləri gün - o gündə günahkarlar üçün müjdə olmayacaqdır və mələklər deyəcəklər: "Sizə müjdə qəti qadağandır." (Furqan surəsi, 22)**

Buna görə də inkar edənlər ancaq yox olaraq bu əzabdan qurtulacaqlarına inanmışdılar. Yox olmaq üçün yalvaracaqlar. Amma bu arzuları qəbul edilməyəcək. Çünki dünyada onlara nəsihət ala biləcəkləri qədər ömür verildiyi halda, onlar bilə-bilə inkar etməyi seçmiş və haqdan üz döndərmişdilər. Bu səbəblə onlara aşağıdakılar deyiləcək:

**Bu gün bir ölüm çağırmayın, çoxlu ölüm çağırın!**

**(Furqan surəsi, 14)**

**Oraya girin! Dözün və ya dözməyin, sizin üçün birdir. Sizə ancaq etdiyiniz işlərin əvəzi verilir. (Tur surəsi, 16)**

Allah Əraf surəsinin 40-cı ayəsində onların "halat" (ya da dəvə) iynənin deşiyindən keçənə qədər cəhənnəmdən qurtulmayacaqlarını və cənnətə girə bilməyəcəklərini bildirmişdir.

Bundan başqa, Allah, inkarçıların dünyada ikən necə haqdan üz döndərib, Axirət gününə və Ona qovuşmağı yaddan çıxarıblarsa, o gün də onların unudulacağını, yəni Rəbbdən heç bir əvəz ala bilməyəcəklərini, kömək göstərilməyəcəyini bildirmişdir:

**Allah deyəcək: "Elədir. Ayələrimiz sənə gələndən sonra sən onları unutdun. Sən də bu gün belə unudulacaqsan."**

**(Taha surəsi, 126)**

**Onlara deyilər: "Bu gününüzlə qarşılaşacağınızı unutduğunuz kimi, bu gün Biz də sizi unuduruq. Sizin yeriniz cəhənnəm odudur və sizə kömək edənlər də olmaz." (Casiyə surəsi, 34)**

**O kəslərə ki, onlar öz dinlərini əyləncə və oyun etmiş, bu dünya həyatı isə onları şirnikləşdirmişdi. Bu günləri ilə görüşü unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də bu gün onları unudarıq. (Əraf surəsi, 51)**

Onlarsa yenə də yalvaracaq və Allahdan onları atəşdən çıxarmasını istəyəcəklər, amma Allah belə cavab verəcək:

**Allah deyər: "Gedin ora və Mənimlə danışmayın!"**

**(Muminun surəsi, 108)**

İnkar edənlərin həmişə alacaqları əvəz heç cür kömək görməmək və cəhənnəm əzabında tərk edilmək olacaq. Allah onlara rəhm etməyəcək, mərhəmət göstərməyəcək və etdikləri günahları, səhvləri bağışlamayacaq. Halbuki, dünyada ikən Allaha sığınsaydılar, Onun həmişə bağışlayan və

mərhəmət göstərən olduğunu görəcəkdilər. Ancaq cəhənnəmi görəndə bu həqiqətləri xatırlayacaqlar, amma bunun onlara heç bir xeyri olmayacaq.

Bütün bunlardan sonra Allahın bəndəsini sevən və hər zaman bağışlayan olduğunu indidən fikirləşib, təkcə Onu dost və vəkil qəbul etmək lazımdır. Cəhənnəmin qapıları onların üstünə bircə dəfə bağlandımı, daha sonsuza qədər açılmayacaq və dünyada ikən əllərində olan fürsətlər bir də təkrar verilməyəcək. Bu əbədi peşmançılıqdan azad olmağın yolu isə Quranda bildirilmişdir:

**Tövbə edərək düzələnlər, Allaha sığınanlar və dini ancaq Allaha məxsus edənlər istisnadır. Onlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat bəxş edəcək. Şükür edib iman gətirsəniz, sizə əzab verməк Allahın nəyinə gərəkdir? Həqiqətən Allah şükür sahibidir, hər şeyi biləndir.**

**(Nisa surəsi, 146-147)**

# BU PEŞMANÇILIĞI YAŞAMAMAQ ÜÇÜN...

**Şükür edib iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə gərəkdir? Həqiqətən Allah şükür sahibidir, hər şeyi biləndir. (Nisa surəsi, 147)**

İnsan bəzi qüsurlara, nöqsanlara, acizliklərə malik bir varlıqdır. Ona verilən ömür boyu yaddan çıxarar, səhv edər və çoxlu xətaları olar. Amma eyni zamanda, Allah tərəfindən verilmiş olan tövbə kimi böyük bir nemətlə dünyada ikən bu səhvlərin düzəldilməsi həmişə mümkündür. Dünya insanın maarifləndirilməsi, səhvlərinin düzəldilməsi və ona verilən nemətlərlə imtahan edilməsi üçün yaradılmışdır.

İnsan dünyada ikən etdiyi səhvlərdən, ya da yaşadığı həyatdan bəzən böyük peşmançılıq duya bilər. Amma bunu düzəltmək imkanı mövcuddur; insan yaşadığı bu peşmançılıqdan sonra tövbə etsə, Allahın onu bağışlayacağına və mərhəmət göstərəcəyinə ümid edə bilər.

Allah Quranda səmimi olaraq tövbə edənləri bağışlaycağını müjdələyir. Allah insanın daxilində gizlətdiyi, fikirləşdiyi, beynindən keçirdiyi hər kəlməni, hər fikri və daxilən səmimi olub-olmadığını bilir. "Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh adam olsanız, bilin ki, Sizin Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh adam olsanız (bilin ki), həqiqətən də O, tövbə edənləri bağışlayandır (İsra surəsi, 25), - deyərək, insana olan yaxınlığını xəbər verir.

Ancaq çox əhəmiyyətli bir gerçək var ki dünyada edilən səhvlərin, günahların öləndən sonra düzəldilməsi heç cür mümkün deyil. Demək, insanın itirəcəyi bircə anı da yoxdur. Yaşadığı dəqiqələr göz qırpımında keçir, insan hər ötən saniyə ölümə daha da yaxınlaşır. Üstəlik, ölümünün nə vaxt- hansı gündə və saatda olacağını da heç kim bilmir. Ancaq bir gün mütləq öləcək və etdiyi hərəkətlərə, yaşadığı ömrə görə Rəbbinin yanında sorğu-sual ediləcək.

Buna görə də, insan hər an öləcəyini həmişə yadında saxlamalı və axirətdə peşman olmaması üçün həyatına yenidən nəzər salmalıdır: İndi ölüm mələklərilə qarşılaşsa, yaşadığı illərin hesabını verə biləcəkmi? Bu günə qədər Allahı razı sala bilmək üçün nə etmişdir? Onun hökmlərini istədiyi kimi yerinə

yetirirmi? Bəlkə də bu sualların heç birinə verməyə müsbət cavabı olmaz. Əgər elə indi tövbə edərsə, bundan sonrakı həyatını Allahı razı salmaq üçün keçirəcəyinə səmimi qərar verərsə, Allahın tövbəsini qəbul edəcəyinə, onu bağışlayacağına inana bilər.

İnsan "Ğaffar" (mərhəmətlilərin ən mərhəmətlisi), "Halim" (bəndələrinə qarşı çox yumşaq olan) və "Təvvab" (bağışlayan və əsirgəyən, tövbələri qəbul edib, günahları yaxşılıqlara çevirən) olan Rəbbinə sığınmalıdır. Allah səbr edənlərin və Ona yön tutub pis yoldan qayıdanların əvəzini mütləq verəcək. İman gətirən bəndələrinin günahlarını bağışlayaraq, yaxşılığa çevirəcək və etdikləri xeyirli işləri ən əla mükafatla mükafatlandıracaq. Allahın bəndələrinə verdiyi bu böyük müjdə belə bildirilmişdir:

**Sizdə olanların hamısı tükənib gedər, Allahda olanlar isə daimi qalandır. Biz səbr edənlərə əməllərindən də yaxşı əvəz verəcəyik. İman gətirib əməlisaleh olan kişi və qadını Biz gözəl bir həyatla yaşadacaq və onlara etdikləri işlərdən də yaxşı əvəz verəcəyik. (Nəhl surəsi, 96-97)**

Yaddan çıxarmayın ki, insan qəfildən ölümlə üzləşə bilər və peşman olsa da, bir də geri qayıdıb, etdiklərini düzəltməyə imkan tapmaz. Bu üzdən, əgər Rəbbin sevdiyi bir bəndə olmaq və ölümündən sonra Onun saleh bəndələri üçün hazırladığı cənnətə qovuşmaq istəyirsə, tez Rəbbindən bağışlanmasını istəməli və həyatını Onun əmr etdiyi şəkildə Qurana tabe olaraq yaşamalıdır.

# DARVİNİZMİN ÇÖKÜŞÜ

## Darvinizmin ideoloji çöküşü

Darvinizmi yalnız elm dünyasına aid bir iddia olmaqdan çıxarıb, bütün cəmiyyət üçün əhəmiyyətli hala gətirən cəhət nəzəriyyənin ideologiyasıdır. Bütün canlıların, o cümlədən insanın necə yaradıldığı sualına verməyə çalışdığı cavaba görə Darvinizm bəzi fəlsəfələrin, dünyagörüşlərinin və siyasi ideologiyaların əsasını təşkil edir.

Burada darvinizmin bu idologiyasının xüsusilə türk dövləti və milləti ilə əlaqədar olan iki yönünə toxunacağıq. Bunlardan biri darvinizmlə materialist fəlsəfə arasındakı əlaqədir. Digəri isə darvinizmlə irqçilik, ələlxüsus da türk düşmənçiliyi arasındakı çox az bilinən, lakin önəmli bağlantıdır.

Əvvəlcə söhbətimizə birinci əlaqədən başlayaq. Materialist fəlsəfə, yaxud başqa cür ifadə etsək, “maddəçilik” tarixi Qədim Yunanıstana qədər uzanan bir düşüncə sistemidir. Materializm maddənin yeganə varlıq olduğuna əsaslanır. Materialist fəlsəfəyə görə, maddə sonsuzdan bəri mövcuddur, sonsuza qədər də olacaqdır. Yenə bu fəlsəfəyə görə, maddədən başqa heç bir varlıq yoxdur.

Təbii ki, materializmin bəzi siyasi yönləri də var. Bunların başında heç şübhəsiz ki, kommunizm gəlir. Əsas kommunizm ideoloqları hesab edilən Karl Marks və Fridrix Engels həm də dialektik materializmin banilərıdir. Kommunizm isə materialist fəlsəfənin Marks və Engels tərəfindən sosial elmlərə tətbiq edilməsindən başqa bir şey deyil.

Kommunizm bu gün tarixin dərinliklərində qalmış bir ideologiya kimi görsənir, halbuki həqiqətdə hələ də öz təsirini itirməyib.

Darvinizm isə bu nöqtədə böyük önəm qazanır. Çünki darvinizm, ya da təkamül nəzəriyyəsi canlıların yaradılmadığını, təsadüfən meydana gəldiklərini iddia etdiyi üçün materialist ideologiyalar tərəfindən qəbul edilmiş, xüsusilə kommunizmin “əsas dayağı” sayılmışdır. Kommunist ideologiyanın bütün öndə gedən fikir liderləri bu nəzəriyyəni olduğu kimi qəbul etmişlər və ideologiyalarını buna əsaslandırmışlar.

Məsələn, Karl Marks 1860-cı ildə Fridrix Engelsə yazdığı bir məktubunda Darvinin kitabı haqda “bizim fikirlərimizin təbii tarixi əsasını təşkil edən kitab

budur” ifadəsini işlətmişdir (Convay Zirkle, Evolution, Marxian Biologu and the Social Scene. 1959, səh. 86). Yenə Marks 1861-ci ildə Ferdinand Lassalleyə yazdığı məktubda “Darvinin əsəri (“Növlərin mənşəyi”) böyük bir əsərdir və tarixdəki sinif mübarizəsinin təbiət elmi yönündən əsasını təşkil etdiyi üçün mənə çox uyğun görsənir” demişdir (K.Marx, F.Engels, Seçmə yazışmalar, 1884-1869). Buna oxşar şəkildə Çin kommunizminin qurucusu Mao Tze Dun da “Çin sosializminin bünövrəsini Darvinə və təkamül nəzəriyyəsinə əsaslandırdığını” açıq şəkildə bildirmişdir (K.Mehnert, Deutsche Verlags - Anstalt, Kampf um Maos Erbe., 1977).

Kommunizmə qarşı aparılacaq fikri mübarizənin dolayısı ilə mütləq materialist fəlsəfəni və təkamül nəzəriyyəsini hədəf seçməli olduğu aydındır. Digər tərəfdən, təkamül nəzəriyyəsinin bir cəmiyyətdə geniş qəbul edilməsinin materializmi və dolayısı ilə kommunizmi bəsləyəcəyi də bəllidir.

## Darvinizm və türk düşmənçiliyi

Başqa bir önəmli mövzu isə darvinizmin yuxarıda qeyd etdiyimiz ikinci ideologiyasıdır: **Türk düşmənçiliyi.**

Təkamül nəzəriyyəsi kommunist ideologiyasının fikri dayağı olduğu kimi, Türk düşmənçiliyinin də fikri əsasıdır. Çünki nəzəriyyə insanları “aşağı irqlər” və “mədəni irqlər” kimi iki yerə ayırıb, uca Türk Millətini də “aşağı irqlər”ə aid edib. Nəzəriyyə türklərin tam insan olmadıqlarını, meymunla insan arasındakı canlılar olduqlarını və “gerçək insan irqi olan avropalılar” tərəfindən zaman-zaman yox ediləcəklərini iddia edir.

Nəzəriyyənin banisi Çarlz Darvin bu fikrini çox yerdə açıq şəkildə bəyan edib. Məsələn, V.Grazam adlı bir dostuna 1881-ci il iyul ayının 3-də yazdığı məktubunda (sonralar oğlu Francis Darvin tərəfindən yazılan “The Life and Letters of Charles Darwin” adlı kitabın 1-ci cildinin 286-cı səhifəsində göstərilən “Letter to W.Graham” hissəsində də bildirildiyi kimi) bu ifadələri işlətmişdir: “Avropa irqləri kimi tanınan mədəni irqlər həyat mübarizəsində TÜRK BARBARLIĞINA qalib gəlmişdir. Dünyanın heç də uzaq olmayan gələcəyinə nəzər salanda, BU CÜR AŞAĞI IRQLƏRIN əksəriyyətinin mədəniləşmiş yüksək irqlər tərəfindən yox ediləcəyini görürəm”.

Darvinin Türk millətini hədəfə alan bu çirkin hərəkətləri bu gün neonasistlərin nəşrlərində istifadə edilir və Internet vasitəsilə on milyonlarla insana çatdırılır. Qərbin Sevrdən bu günə qədər dəyişməyən Əziz Türk Millətini kənarlaşdırmağa və əzməyə yönəlmiş axtarışlarının arxasında da bu irqçi və Türk düşməni olan fikirlər durur. Petr Dozilərdən irqçi "daz"lara qədər bütün türk düşmənləri fikri dayaqlarını darvinizmdən alırlar.

Solingendə türklərin evlərinin dağıdılması, Bolqarıstanda Türklərə edilən zülmlər, keçmiş Sovet Sosialist Respublikaları Ittifaqının (SSRI) Türk xalqlarını illərlə əsarətdə saxlaması, Krım türklərini Sibirə sürgün etməsi, Özbək və Qırğız türklərinə təzyiq etməsi, ermənilərin Azərbaycandakı türklərə qarşı işğalçılıq siyasəti aparması, Kipr türklərinə olan haqsızlıqlar, Türkiyənin Avropa Birliyinə qəbul edilməməsi, Avropa dövlətlərinin türkləri öz aralarında görməmək üçün viza tətbiq etməsi, Avropa ölkələrinin və Italiyanın Türkiyəyə qarşı olan düşmən siyasəti eyni irqçi anlayışın təzahürləridir.

Bura qədər yazdıqlarımızdan da məlum olduğu kimi, darvinizm Türk Dövlətinin və Millətinin qalıcılığını təhdid edən üç əsas fikri cərəyanın da guya elmi dayağıdır; kommunizm, bölücülük və Türk düşmənçiliyi təkamül nəzəriyyəsindən ilham alır. Bu mövzu çox əhəmiyyətlidir.

Çünki yaradılışı rədd edərək, canlıların təsadüflər nəticəsində öz-özünə meydana gəldiklərini, dövr ötdükcə dialektik qaydalarla inkişaf etdiklərini iddia edən və Türk millətinə "aşağı irq" deyən bu düşüncə sisteminin yanlışlığı ortaya çıxarılmadığı təqdirdə, gənclərimizi yaxın gələcəkdə qaranlıq yönlərə aparacağı təhlükəsi olduğu məlumdur.

Bu iddialara etibar edən və təkamül nəzəriyyəsinin elmi tərəfi olduğunu düşünən gəncdən ölkəsinə, millətinə, bayrağına, dövlətinə bağlı olması, gözəl əxlaq, ailə təsisatının müqəddəsliyi kimi dəyərləri uca tutması gözlənə bilməz. Bu gəncin türklük düşməni və kommunist olmaqdan başqa seçəcəyi heç nə yoxdur. Yaddan çıxarılmamalıdır ki, darvinist gənclər yetişdirmək dövlətimizin və millətimizin başına böyük bir bəla gətirmək, "oturduğumuz budağı kəsmək" deməkdir.

Bu, darvinizmin ideologiyasıdır. Digər tərəfdən, bu nəzəriyyə təkcə elmi nəzərlərlə incələnəndə də yenə ümumiliklə rədd edilməsi lazım gələn köhnə bir iddia olduğu aydınlaşır. Çünki XX əsrdə elmi inkişafı nəzəriyyənin iddialarını çox açıq şəkildə mənasız hala salmışdır. Sonrakı yazılarda təkamül nəzəriyyəsinin bəhs etdiyimiz elmi süqutunun qısa şəkildə xülasəsini

verəcəyik.

## Darvinizmin elmi süqutu

Təkamül nəzəriyyəsi tarixi qədim Yunanıstana qədər uzanan bir təlim olmasına baxmayaraq, ancaq 19-cu əsrdə əhatəli şəkildə ortaya çıxdı. Nəzəriyyəni elm dünyasının gündəminə salan ən mühüm məsələ Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda müxtəlif canlı növlərinin Allah tərəfindən ayrı-ayrı yaradıldıqları gerçəyinə qarşı çıxırdı. Darvinə görə, bütün cinslər müştərək bir atadan gəlirdilər və zaman ötdükcə kiçik dəyişikliklərlə bir-birilərindən fərqlənmişdilər.

Darvinin nəzəriyyəsinin heç bir maddi dəlili yox idi; özünün də qəbul etdiyi kimi, təkcə "məntiq ortaya atma" idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə daha çox mühüm sual qarşısında çat verirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərin elmin inkişafı ilə birlikdə həll ediləcəyini, yəni elmi kəşflərin nəzəriyyəni gücləndirəcəyini zənn edirdi. Bunu kitabının çox yerində bildirmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə olaraq, nəzəriyyənin əsas iddialarını bir-bir sarsıdırdı.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç əsas başlıqda incələnə bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.
2) Nəzəriyyənin ortaya atdığı "təkamül mexanizmləri"nin həqiqətdə təkamülləşdirici təsirə malik olduğunu göstərən heç bir elmi sübut yoxdur.
3) Fosil qeydləri təkamül nəzəriyyəsinin tam əksini ortaya çıxarır.
4) Indi bu əsas başlıqları əsas yönləri ilə incələyək.

## Aydın olmayan ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin təxminən 4 milyard il əvvəl dünyada ilk ortaya çıxan yeganə bir canlı hüceyrədən əmələ gəldiklərini iddia edir. Tək hüceyrənin milyonlarla kompleks canlı növünü necə meydana gətirdiyi və əgər həqiqətən bu cür bir təkamül olubsa, niyə bunun izlərinin fosil qeydlərində tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül mərhələsinin ilk pilləsində durmaq lazımdır: bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün "ilk hüceyrə"nin heç bir plan və nizam-intizam olmadan, təbiət qanunları daxilində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, bilinən ən əsas biologiya qanunlarına zidd iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin kitabında həyatın mənbəyi barədə heç nə qeyd etməyib. Çünki onun dövründəki ibtidai elm canlıların çox sadə bir quruluşa malik olduqlarını qəbul edirdi. Orta əsrlərdən bəri inanılan və "Spontan Generasiya" adlanan nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə yığışıb canlı bir varlıq meydana gətirəcəyinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan əmələ gəldiyinə şübhə etmirdilər. Bunu isbat edə bilmək üçün də qəribə təcrübələr aparmışdılar. Kirli bir parçanın üstünə bir az buğda qoyulmuş və bir az da gözləniləndən sonra bu reaksiyadan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlaması da həyatın cansız maddələrdən meydana gəlməsinə dəlil sayılırdı. Halbuki, daha sonra bilinəcəkdi ki, ətlərin üstündəki qurdlar öz-özünə ortaya çıxmırlar, milçəklərin gətirib qoyduqları gözlə görsənməyən larvalardan çıxırlar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gəldiyi inancı elm dünyasında qəbul edilirdi.

Halbuki Darvinin kitabının nəşr edilməsindən beş il sonra, məşhur fransız bioloq Luis Paster təkamülün əsası olan bu inancı qəti olaraq rədd etdi. Paster apardığı çalışmalar və təcrübələrdən sonra gəldiyi nəticəni belə xülasə etmişdi: "Cansız maddələrin həyat əmələ gətirdikləri iddiası daha qəti olaraq tarixə basdırılmışdır." (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origins of Life, New York: Marcel Dekker, 1977, səh. 2).

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pasterin gəldiyi nəticələrə qarşı uzun müddət mübarizə apardılar. Ancaq inkişaf edən elm canlı hüceyrənin mürəkkəb quruluşunu ortaya çıxarandan sonra həyatın öz-özünə meydana gəlməsi iddiasının çürüklüyü daha da aydın oldu.

## 20-ci əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu ələ alan ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrənin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq onun bu axtarışların nəticəsiz qaldı. Oparin bunu etiraf etməyə məcbur oldu: "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsini bütövlükdə əhatə edən ən qaranlıq nöqtəni təşkil edir" (Alexander I Oparin, Origin of Life, (1936) New York: Dover Publications, 1953 (Reprint), səh. 196).

Oparinin arxasınca gedən təkamülçülər həyatın mənşəyi mövzusunu bir yerə çıxara bilmək üçün təcrübələr aparmağa səy göstərdilər. Bu təcrübələrin ən məşhuru amerikalı kimyagər Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai dünyanın atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə vasitəsilə birləşdirərək və bu reaksiyaya enerji əlavə edərək, proteinlərin tərkibində olan bir neçə üzvi (orqanik) molekulu (aminoasit) sintez etdi.

Həmin illərdə əhəmiyyətli bir mərhələ kimi təqdim olunan bu təcrübənin nəticəsiz qaldığı və təcrübədə itifadə edilən atmosferin gerçək dünya atmosferindən çox fərqli olduğu gələcək illərdə ortaya çıxacaqdı ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American

Meteorological Society, cild 63, noyabr 1982, səh. 1328-1330). Uzun müddət davam edən bu səssizlikdən sonra Millerin özü də istifadə elədiyi atmosferin həqiqi olmadığını etiraf etdi (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7).

Həyatın mənşəyi məsələsini açıqlamaq üçün 20-ci əsrdə aparılan bütün təkamülçü səylər həmişə nəticəsiz qaldı. San Dieqo Scripps Institutundan tanınmış geokimyaçı Ceffri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr edilən bir məqalədə bu həqiqəti belə qəbul edir: "Bu gün 20-ci əsri arxada qoyarkən, hələ 20-ci əsrə daxil olanda sahib olduğumuz ən böyük həllini tapmamış problemlərlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başladı?" (Jeffrey Bada, Earth, fevral 1998, səh. 40).

## Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda çox çətinliyə düşməsinin əsas səbəbi ən sadə hesab edilən canlı orqanizmlərin inanılmayacaq dərəcədə qarmaqarışıq qurulşa malik olmasıdır. Canlı hüceyrəsi insan oğlunun düzəltdiyi texniki məhsullardan daha da mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriiyalarında da cansız maddələri bir yerə yığaraq, canlı hüceyrə əldə etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər heç vaxt təsadüflərlə izah edilməyəcək qədər çoxdur. Hüceyrənin nüvəsində genetik məlumatları ehtiva edən DNT molekulu inanılması çətin də olsa, sanki bir məlumat bankıdır. Əgər insan DNT-nin saxladığı məlumatları kağıza köçürə bilsə, hər biri 500 səhifədən ibarət 950 cildlik bir kitabxana olacağı hesablanır. Hüceyrənin əsaslarından biri olan proteinlərin təsadüfi olaraq sintezləşmə ehtimalı isə 500 aminoasitlik yuvarlaq bir protein üçün $10^{950}$də 1-dir. Ancaq riyaziyyatda $10^{50}$-də 1-dən aşağı olanlar "imkansız" sayılır.

Şübhəsiz, əgər həyatın təsadüflərlə ortaya çıxmasının imkansız olduğu təsdiqlənirsə, bu vəziyyətdə onun fövqəltəbii şəkildə "yaradıldığını" qəbul etmək lazımdır. Bu həqiqət ən əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsinin açıq-aşkar mənasızlığını ortaya çıxarır. Cardiff Universitetindən Tətbiqi riyaziyyat və astronomiya professoru Çandra Vixramasinc həyatın

yaradılmadığına on illər boyu inandırılmış bir elm adamı kimi elmi kəşflər nəticəsində qarşılaşdığı bu həqiqəti belə ifədə etmişdir:

"Bir elm adamı kimi aldığım təhsil müddətində elmin hər hansı bir yaradılış qavramı ilə uyğunlaşamıyacağına dair çox güclü bir beyin təmizlənməsinə məruz qaldım. Bu qavrama şiddətlə əks münasibət olmalı idi... Amma indi Tanrıya inanmağı əsas götürən açıqlama qarşısında ortaya atılıcaq heç bir ağıllı arqument tapa bilmirəm... Biz həmişə açıq bir zehnlə düşünməyə öyrəşdik və indi dilə gətirilə biləcək tək məntiqli cavabın yaradılış olduğu nəticəsinə gəlirirk, təsadüfi qarışıqlıqlar deyil" (Chandra Wickramasinghe, Interviewin London Daily Express, 14 avqust 1981).

## Təkamülün xəyal mexanizmləri

Darvinin nəzəriyyəsini puç edən başqa ikinci böyük nöqtə nəzəriyyənin "təkamül mexanizmləri" kimi ortaya atdığı iki anlayışın da həqiqətdə heç bir təkamülləşdirici gücə malik olmadığının sübuta yetirilməsidir.

Darvin ortaya atdığı təkamül iddasını tamamilə "təbii seleksiya" mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da görsənirdi: "Növlərin mənşəyi təbbi seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir və təbiətdəki həyat mübarizəsində güclü və təbii şərtlərə uyğun olan canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən hürküdülən bir maral sürüsündə daha sürətli qaça bilənlər həyatda qalacaqlar. Beləliklə, maral sürüsü sürətli və güclülərdən meydana gəlməlidir. Ancaq əlbətə, bu mexanizm marallları təkamülləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə, təbii seleksiya mexanizmi heç bir təkamülləşdirici gücə malik deyil. Darvin də bu həqiqətin fərqində idi və "Növlərin mənşəyi" kitabında "faydalı dəyişikliklər meydana gəlmədiyi vaxtda təbii seleksiya heç nə edə bilməz" demək məcburiyyətində qalmışdı (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189).

## Lamarkın təsiri

Yaxşı, bu “faydalı dəyişikliklər” necə meydana gəldi? Darvin öz dövrünün ibtidai elm anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu məruz qaldıqları fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə ötürüləərək yığılan bu xüsusiyyətlər nəticəsində isə yeni cinslər meydana çıxır. Məsələn, Lamark deyirdi ki, zürafələr ceyranlardan əmələ gəliblər. Belə ki, hündür ağacların yarpaqlarını yemək üçün səy göstərərkən nəsildən-nəslə boyları uzanıb.

Darvin də buna oxşar misallar gətirmiş, məsələn “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların bir muddət sonra balinalara çevrildiyini iddia etmişdi (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184).

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə qətiləşən qalıtım qanunları, qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini qəti olaraq dağıtdı. Beləliklə, təbii seleksiya bütünlüklə təsirsiz bir mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çözüm tapa bilmək üçün 1930-cu illərin axırlarında “Müasir sintetik nəzəriyyə”ni, daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyanın yanına “faydalı dəyişikliklrin səbəbi” kimi mutasiyaları, yəni canlıların genlərinə radiasiya tək xarici təsirlərin, ya da köçürmə səhvləri nəticəsində meydana gələn pozuntuları əlavə etdi.

Bu gün hələ də dünyada təkamül adına qəbul edilən model neodarvinizmdir. Nəzəriyyə yer üzündə olan milyonlarla canlı növünün, bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının “mutasiyalara”, yəni genetik pozuntulara əsaslanan bir mərhələ nəticəsində əmələ gəldiyini iddia edir. Ancaq nəzəriyyəni kəsərsiz edən açıq bir elmi

həqiqət var: mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində meydana gələn hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genekoloq B.G.Ranganathan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamülçü bir inkişafa səbəb ola bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş bir orqanizmdə meydana gələn təsadüfi bir hal ya təsirsiz olacaq, ya da zərərli. Bir qol saatında meydana gələcək təsadüfi dəyişiklik onu inkişaf etdirməyəcəkdir. Böyük ehtimalla ona zərər verəcək və ya ən yaxşı ehtimalla təsirsiz qalacaq.

Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, əksinə onu dağıdar" (B.G.Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truch Trust, 1988).

Bu günə qədər heç bir xeyirli mutasiya nümunəsi olmayıb. Bütün mutasiyaların zərərli olduğu müəyyənləşdi. Aydın oldu ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar həqiqətdə canlılara ancaq ziyan verən, şikəst edən bir genetik hadisədir (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəngdir). Əlbəttə, zərərverici bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç nə edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi" olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali mərhələ də ola bilməz.

## Fosil qeydləri: ara formalardan əsər yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmış olmadığının ən açıq sübutu isə fosil qeydləridir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İlk canlı növü vaxt keçəndən sonra başqa formaya çevrilmiş və bütün cinslər bu

şəkildə ortaya çıxmışdır. Nəzəriyyəyə görə, bu dəyişiklik yüz milyon illər boyu sürərək, mərhələ-mərhələ inkişaf etmişdir.

Bu vəziyyətdə, iddia edilən uzun dəyişiklik müddətində saysız "ara cinslər"in meydana gəlmiş və yaşamış olduqlarını qəbul etmək lazımdır.

Məsələn, keçmişdə balıq xüsusiyyətləri özündə olmasına baxmayaraq, bir yandan da bəzi sürünənlərin xüsusiyyətlərini qazanmış yarı balıq - yarı sürünən canlılar yaşamış olmalıdır. Ya da sürünənlərin xüsusiyyətlərini gəzdirərkən, bir yandan da bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmalıdır. Ancaq onlar keçid mərhələsində olduqları üçün şikəst, nöqsanlı və qüsurlu canlılar olmalıdırlar. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri məxluqlara "ara keçid forması" adını verirlər.

Əgər həqiqətən keçmişdə bu cür canlılar yaşayıbsa, onda onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalıdır. Və bu qəribə canlıların qalıqlarına mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır: "Əgər nəzəriyyə düzdürsə, cinsləri bir-birinə bağlayan saysız ara-keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının sübutları da təkcə fosil qalıqları arasında tapıla bilər. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)".

## Darvinin puç olan ümidləri

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd bir tərəfində fosil tədqiqatları aparılmasına baxmayaraq, bu ara keçid formalarına heç vaxt rast gəlinməyib. Aparılan qazıntılarda və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, nöqsansız və qüsursuz ortaya çıxdıqlarını göstərmişdir.

Tanınmış ingilis paleontoloq (fosil elmi) Derek V. Ager təkamülçü olmasına rəğmən, bu gerçəyi belə etiraf edir:

"Problemimiz budur: fosil qeydlərini təfərrüatı ilə araşdıranda, istər cinslər, istər siniflər səviyyəsində olsun, davamlı olaraq həmişə eyni həqiqətlə qarşılaşırıq: mərhələli təkamüllə inkişaf edən yox, birdən Yer Kürəsində meydana gələn qruplar görürük. (Derek A. Ager, "The Nature of the Fossil

Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133")".

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, nöqsansız şəkilləri ilə anidən oratya çıxırlar. Bu, Darvinin düşüncülərinin tam əksidir, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün özündən təkamülləşdiyinin, heç bir ata olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının yeganə izahı o cinsin yaradılmasıdır. Bu həqiqət, məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir: "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında ediləcək yeganə iki açıqlamadır.

Canlılar dünya üzərində ya tamamilə mükəmməl və nöqsansız bir şəkildə ortaya çıxmışdır, ya da belə olmamışdır. Əgər belə olmayıbsa, onda bir dəyişiklik mərhələsi sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamülləşərək, meydana gəlməlidirlər. Amma, əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxıblarsa, o halda sonsuz güc sahibi bir ağıl tərəfindən yaradılmalıdırlar. (Douglas J.Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983, səh. 197)".

Fosillər də canlıların yer üzündə qüsursuz və mükəmməl şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni növlərin mənşəyi Darvinin zənninin əksinə olaraq, təkamül deyil, yaradılışdır.

## Materialist inanc

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi kəşflərlə açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, ortaya atdığı təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər olmasını nəzəriyyənin vacib saydığı ara formaların yaşamadıqlarını göstərir. Belə də əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir fikir tək kənara atılması lazımdır.

Tarix boyu təkamül modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsini təkidlə elmi gündəmə gətirmək istəyirlər. Hətta bəzi adamlar nəzəriyyənin tənqidini "elmə hücum" kimi qələmə verməyə çalışırlar. Görəsən nəyə görə?...

Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi mühitlər üçün heç cür əldən buraxılmayacaq doqmatik bir inanc olmasıdır. Bu adamlar materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə verilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər.

Bəzən bunu açıq şəkildə etiraf da edərlər. Harvard Universitetindən məşhur genekoloq və tanınmış təkamülçü olan Riçard Levontin "əvvəlcə materialist, sonra elm adamı" olduğunu belə etiraf edir: "Bizim materializmə bir etiqadımız var, "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru sayılan) bir inancdır bu. Bizi dünyaya materialist bir açıqlama gətirməyə məcbur edən şey elmin yöntəmləri və qaydaları deyil.

Əksinə, materializmə olan "a priori" bağlılığımız üzündən dünyaya materialist açıqlama gətirən araşdırma üsulları və qavramları təqdir edirik. Materializm mütləq doğru olduğuna görə də Ilahi bir açıqlamanın səhnəyə daxil olmasına icazə verə bilmərik (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar, 1997, səh. 28).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq ucbatından yaşadılan bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Buna görə də cansız, məntiqsiz maddənin həyatı yaratdığına inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, qaplanların, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların cansız maddənin öz içindəki dəyişikliklərə, yəni yağan yağışla, çaxan şimşəklə onun içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağla, həm də elmi gerçəkliklərə zidd qənaətdir. Amma darvinistlər "İlahi bir açıqlamanın səhnəyə girməməsi" üçün bu qənaəti müdafiə etməyə davam edirlər.

Canıların mənşəyinə əvvəlcədən qəbul edilmiş materialist düşüncəylə baxmayan hər kəs isə bu açıq gerçəyi görəcəkdir: "Bütün canlılar üstün bir güc, məlumat və ağla sahib olan bir Yaradanın əsərləridir. O Yaradan bütün kainatı yoxdan yaradan, canlıları da yaradıb şəkilləndirən Allahdır".

**Sən ucasan, bizə öyrətdiklərindən başqa heç nə bilmirik.**
**Doğrudan da hər şeyi bilən və hikmət sahibi yalnız Sənsən!"**
**(Bəqərə surəsi, 32)**

Allaha iman etməyən insanlar həyatı boyunca tez-tez peşmanlıq duyğusuna qapılarlar. Təvəkkül sahibi olmadıqları üçün, qarşılaşdıqları çətinliklərdə və ya etdikləri bir səhvdə böyük mənəvi çətinlik yaşayarlar. Həyatı boyunca bir çox hadisədə "kaş" sözünü istifadə edərlər; "kaş etsəydim", "kaş desəydim", "kaş getsəydim"...

Ancaq bundan daha əhəmiyyətli bir mövzu vardır ki, o da dünyada ikən yaşadıqları bu peşmanlıqdan daha böyüyük olanı axirətdə qarşılarına çıxacaq olmasıdır. Həyatı boyunca dindən uzaq həyat yaşayan insanlar, axirətdə dünyada keçirdikləri hər dəqiqənin peşmanlığını yaşayacaqlar. Çünki dünyada ikən çox dəfə xəbərdar edilmiş, doğru yola dəvət edilmişlər.

Dünya həyatı boyunca, düşünə biləcəkləri və doğrunu tapa biləcəkləri çox müddət verilmişdir. Ancaq bu anları həmişə göz ardı etmiş, xəbərdar edildiklərində dinləməmiş və dünya həyatının heç vaxt sona çatmayacağı kimi bir hissə qapılaraq axirəti unutmuşlar. Amma cəhənnəm ilə qarşılaşdıqlarında, artıq geri dönüb səhvlərini düzəltmə imkanı tapa bilməyəcəklər.

Bu kitabın məqsədi, "kaş ağıl etmiş olsaydıq, kaş Rəbbimizin ayələrini yalanlamamış olsaydıq, kaş bizi xəbərdar edənlərin sözlərinə əməl etsəydik..." deyəcəkləri və torpaq olub, yox olmağı diləyəcək qədər böyük peşmanlıq yaşayacaqları belə bir günə qarşı insanları xəbərdar etmək və hələ düzəltmə imkanı varkən Allah üçün yaşamağa çağırmaqdır.

**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.